# Azərbaycanlıların ali təhsil və yaşamaq üçün Türkiyəni seçməsində din faktoru və tələbələrin təhsil müddətində dini düşüncələrinin dəyişməsi

•

Bəzirgan Verdiyev

İDRAK
"İdrak" İctimai Birliyi

Bakı - 2020

© Bəzirgan Verdiyev, 2020
© "İdrak" İctimai Birliyi, 2020

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN

Redaktor: Ülvi Babasoy
Bədii və texniki tərtibat: Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK/Q-)

# Ön söz

Bildiyimiz kimi, Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət qardaş Türkiyə Respublikası olmuşdur. Müstəqillik illərində Azərbaycan vətəndaşları ali təhsil almaq və yaşamaq üçün Türkiyəyə üstünlük vermişdir. Təbii ki, bu seçimə din amili də təsir etmişdir.

İki ölkə arasındakı yaxın milli-mənəvi dəyərlərin mövcudluğu, qonşuluq münasibətləri və intensiv tələbə mübadiləsinin reallaşdırılması araşdırmanın aktuallıq dərəcəsini artırır. Azərbaycandan Türkiyəyə oxumağa gedən təxminən on beş min tələbənin oradakı xarici tələbələr arasında ilk yeri tutması isə mövzunun əhəmiyyətini göstərir.

Tədqiqat işi iki fəsildən ibarətdir. Birinci fəsildə miqrasiya nəzəriyyələri, qlobal tələbə miqrasiyası, kimlik, aidiyyət, fərqli mədəniyyət ünsürlərinin qarşılaşması, mədəni mübadilə və sosial inteqrasiyaya dair məlumat verilmişdir. Bu fəsil tədqiqat işinin nəzəri əsasını təşkil edir. İkinci fəsildə Türkiyənin regiondakı siyasi, iqtisadi və dini mövqeyi müxtəsər şəkildə şərh edilmişdir. Türkiyədə ali təhsil aldıqları müddət ərzində azərbaycanlı tələbələrin dini düşüncələrinin dəyişməsinə dair anket sorğularının nəticələri də analiz edilmişdir.

Tədqiqat anket sorğusuna əsaslanaraq aparılmışdır. Sorğu Türkiyədə təhsil alan tələbələrin 10 faizini təşkil edir. Anket sorğusunda iştirak edən tələbələrin seçilməsində qartopu modeli tətbiq olunmuşdur. Etibarlılıq və yanılma intervalı 5% hesablanmışdır[1].

---

[1] Hamdi İslamoğlu ve Ümit Alnıaçık, Sosyal Bilimlerde Araştırma Yöntemleri: SPSS Uygulamalı, İstanbul: Beta Yayınları 2016, s. 203-205.

*Birinci Fəsil*

# Miqrasiya nəzəriyyələri və tələbə miqrasiyası

Miqrasiya bəşər tarixi qədər qədimdir. Bəzi alimlərə görə, bu sosial hadisə Adəm peyğəmbərin cənnətdən çıxarıldığı tarixlə başlayır.[2] Miqrasiya daha çox çətinliklərdən xilas olmaq, əmin-amanlıq və rifah içərisində yaşamaq üçün edilir. Modern cəmiyyətdə təhsil üçün miqrasiya daha aktualdır. Miqrasiya prosesi demoqrafik, iqtisadi, siyasi, psixoloji, antropoloji və sosioloji məzmunlar daşıdığına görə çoxşaxəli hadisədir. Deməli, miqrasiyaya hərtərəfli və geniş perspektivdən baxmaq lazımdır. Miqrasiyanı yalnız sosiologiya elminin parametrləri nöqteyi-nəzərindən təhlilə cəlb etmək doğru deyil. Çünki miqrasiya çoxşaxəli və qlobal bir prosesdir. Miqrasiya nəzəriyyələri və qanunlar onun mahiyyətini tam şəkildə ifadə etmir.[3]

Miqrasiya əsas yaşayış yerindən fərdi və ya qrup şəklində gediləcək yerə daimi, yaxud da müvəqqəti olaraq edilən yerdəyişmədir. Sosiologiyada miqrasiya coğrafi mənada yerdəyişmə kimi deyil, bir cəmiyyətdən digərinə edilən köç kimi xarakterizə edilir. Miqrasiya edənlərin məskunlaşdıqları yerin daimi sakini olan insanların yaşayışında və sosial-mədəni həyatında bir sıra dəyişikliklər yaratdığı müşahidə olunur. Camal Yalçın qeyd edir ki, miqrasiya bir cəmiyyətin quruluşunu sosial, iqtisadi, mədəni və siyasi yöndən dəyişdirən prosesdir.[4] Göksal Göker isə miqrasiyanın ictimai faktorlarına diqqət çəkmişdir. O, miqrasiyanın iqtisadi, siyasi, coğrafi, demoqrafik və psixo-

---

[2] Franklin D. Scott, "Introduction: Migration in the Dynamics of History", **World Migration in Modern Times,** Franklin D. Scott (Ed), New Jersey: Prentice-Hall Inc., 1968, s.1.

[3] Cemal Yalçın, **Göç Sosyolojisi,** Ankara: Anı Yayıncılık, 2004, s.3-4.

[4] Yalçın, s.11-12

loji səbəblərlə reallaşdığını, bu məsələdə hərəkətlilik mühüm olsa da, onu sosiologiyanın əsas araşdırma predmetinə çevirən amilin hərəkətlilik deyil, hərəkətliliyə səbəb olan faktorlar və bu prosesdəki fərdi və ictimai dəyişikliklərin olduğunu qeyd etmişdir.[5] Sosiologiya miqrasiyanın tamamlanmasından sonrakı proseslə də maraqlanır. Çünki miqrantların məskunlaşdıqları cəmiyyətlərə inteqrasiyası və ortaya çıxan problemlər sosiologiyanın araşdırma sahəsinə daxildir.

Marşala görə, miqrasiya fərd və qrupların simvolik siyasi sərhədlərin digər tərəfinə – yeni yaşayış yerlərinə və cəmiyyətlərə doğru daimi hərəkətindən ibarətdir.[6] Bu tərifin miqrasiya ilə bağlı digər açıqlamalardan əsas fərqi "daimi" hərəkətin vurğulanmasıdır. Miqrasiya qısa, orta və uzunmüddətli olsa da, kütləvi köç çox vaxt daimi olma xüsusiyyəti daşıyır. Kastles və Miller də miqrasiyanın ilkin mərhələdə hansı niyyətlə həyata keçirilməsindən asılı olmayaraq miqrantların çoxunun nəticə etibarilə daimi məskunlaşdığını bildirir.[7]

Bu günə qədər miqrasiyanın forma və səbəbləri kontekstində fərqli nəzəriyyələr irəli sürülmüşdür. Qloballaşma nəticəsində dünyada hər şeyin bir-biri ilə qarşılıqlı təsir içərisində olması və yayılması miqrasiya mövzusunun əhəmiyyətinin artmasına səbəb olmuşdur. Çünki nəqliyyat yollarının və vasitələrinin sürətli inkişafı köçü kütləviləşdirmişdir.[8] Beynəlxalq Miqrasiya

---

[5] Göksal Göker, **Göç Kimlik Aidiyet,** Konya: Literatürk Academia Yayınları, 2015, s. 34.

[6] Marshall Gordon, **Sosyoloji Sözlüğü,** Ankara: Bilim Sanat 1999, s. 685.

[7] Castles S. ve Miller M., **Göçler Çağı: Modern Dünyada Uluslararası Göç Hareketleri,** Çev. Bülent Uğur Bal ve İbrahim Akbulut, 1. Baskı, İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları, 2008, s.7.

[8] Tarixdə ilk kütləvi köç IV əsrdə Çin istilasından xilas olmaq istəyən hunların Qara dənizin şimalına qədər axın etməsi və bunun nəticəsində də burada yaşayan german tayfalarının qərbə doğru axın edərək Avropanı işğal etməsi ilə nəticələnən zəncirvari miqrasiya prosesi ilə başlamışdır. Həmçinin Yeni Amerika qitəsinin kəşfindən sonra Qərbi Avropadan ora edilən köç də qitələrarası miqrasiya adlandırılır. Baxın: Zeynep Aksoy, Uluslararası Göç ve Kültürlerarası İletişim, **Uluslararası Sosyal Araştırmalar Dergisi**, c. 5, sy. 20, Kış 2012, s. 293; Jonathan W. Moses, **International Migration: Globalization's**

Təşkilatının hesabatına görə, 2015-ci ildə dünyadakı miqrantların sayı 232 milyon olmuşdur. Bu statistika bir ölkədən digərinə köç edən miqrantlara aiddir. Yaşadıqları ölkə içərisində miqrant statusu alanların sayı isə 740 milyondur. Beynəlxalq miqrantların 50%-i meqapolislərdə məskunlaşmaqdadır.[9]

Miqrasiya həm iqtisadi, həm mədəni baxımdan miqrantlara və onların məskunlaşdıqları cəmiyyətlərə təsir edərək bir sıra dəyişikliklər yaradır. Deməli, miqrasiya fərd və cəmiyyətə təsir göstərsə də, onun nəticələri daha qlobal xarakter daşıyır. Fərd və toplumlarda bir sıra dəyişikliklərə səbəb olan miqrasiya cəmiyyətləri yeni və daha mədəni modellər axtarmağa məcbur edir. Göker miqrasiyanın yaratdığı bu dəyişikliyə misal olaraq multikulturalist cəmiyyət məfhumunun ortaya çıxmasını göstərir. O qeyd edir ki, miqrantlar (immiqrantlar) fərqli mədəniyyətlərlə qarşılaşan və eyni zamanda öz mədəni irsini təmsil edən fərdlər kimi mədəniyyətlərarası əlaqənin ən mühüm aktyorlarıdır (actor).[10]

## Miqrasiya ilə birbaşa bağlı olan nəzəriyyələr

Tədqiqatçılar miqrasiya nəzəriyyələrini iki kateqoriyaya ayırırlar. Bunların bir qismi miqrasiya ilə birbaşa əlaqəlidir. Digər qismi isə miqrasiya prosesinin nəticəsi kimi ortaya çıxmışdır. İnteqrasiya, assimilyasiya və s. faktorları izah edən nəzəriyyələrdən ibarətdir.[11]

Miqrasiyaya ilk elmi münasibət XIX əsrin sonlarında Ravenşteyn tərəfindən bildirilmişdir. Ravenşteynin nəzəriyyəsi "miqrasiya heç bir dəqiq qaydaya tabe deyil" fikrinə əsaslanır. O, miqrasiya ilə bağlı fikirlərini İngiltərədəki demoqrafik statistika əsasında yazdığı məqalələrində irəli sürmüşdür. Ravenşteynin fikrincə, 7 miqrasiya qanunu mövcuddur. Bu qanunlar *məsafə,*

**Last Frontier**, London-New York: Zed Books, 2006, s. 37 vd.

[9] IOM, "Migrants and Cities: New Partnerships to Manage Mobility", **World Migration Report 2013**, Geneva: IOM, 2015 s.2.

[10] Göker, s., 26

[11] Yalçın, s. 22

*mərhələli miqrasiya, yayılma və udma (absorbsiya), zəncirvari köç, birbaşa miqrasiya, məskunlaşma fərqinə görə edilən miqrasiya və qadınlarla* bağlıdır. Ravenşteynin qanunları çoxşaxəli və kompleks miqrasiya faktorunu tam şəkildə izah etmir. Lakin miqrasiya ilə bağlı elmi araşdırmalara böyük töhfə vermişdir. Hətta özündən sonra ortaya çıxan nəzəriyyələr üçün ciddi qaynaqdır.[12]

## Kəsişən fürsətlər

Miqrasiya ilə bağlı ilk nəzəriyyələrdən biri də "Kəsişən fürsətlər"dir. "*Kəsişən fürsətlər*" müddəasından ilk dəfə 1940-cı ildə Ştouffer bəhs etmişdir. Nəzəriyyəyə görə, müəyyən məsafədəki hədəfə doğru köç edən miqrantların sayı oradakı fürsətlərin çoxluğu ilə düz mütənasibdir. Gediləcək yerdə iş imkanları nə qədər çoxdursa, oraya miqrasiya edən insanların sayı da bir o qədər çox olacaqdır. Fürsət məfhumu ilk baxışda əmək resurslarına olan ehtiyacın çox olması kimi anlaşılsa da, başqa faktorları da əhatə edir.[13] Çünki miqrasiya prosesində üç mühüm nüans var: köç ediləcək məsafə, oradakı imkanlar və bu imkanların miqdarı. Ştouffer daha çox məsafə faktorunu təhlil etmişdir. Ona görə, miqrasiya ilə bağlı araşdırmalarda cəzbedici təsirlər təhlil edilməli və köç ediləcək yerlə miqrasiya mənbəyi arasındakı məsafə əsas götürülməlidir.[14] Məsələn, eyni cəzbedici imkanların olduğu iki yer var, ancaq bunlardan biri köç edəcək şəxsə görə yaxın, digəri isə uzaq məsafədədir. Təbii ki, bu cür seçim qarşısında qalan şəxs yaxın olan yerə üstünlük verəcəkdir.

Bu nəzəriyyənin beynəlxalq miqrasiya üçün ən böyük töhfəsi məsafənin nəzərə alınması və miqrasiya prosesi zamanı ya-

---

[12] Baxın: E. G. Ravenstein, "The Laws of Migration", **Journal of the Statistical Society of London,** c.48, sy.2 (1885), s.167-235; Yalçın, s. 23-26;

[13] Clifford J. Jansen, "Migration: A Sociological Problem", Clifford J. Jansen (Ed), **Readings in The Sociology of Mifration** içinde (3-35), Oxford: Pergamon Press, 1970, s.11-12;

[14] Samuel A. Stouffer, "Intervening Opportunities: ATheory Relating Mobility and Distance", **American Sociological Review**, c. 5, sy. 6, 1940, s.846

ranan çətinlikləri diqqətdə saxlayıb dəyərləndirməsidir. Proses zamanı qət olunacaq məsafədə keçiləcək dövlət sərhədləri və sərhəd keçid məntəqələrinin çoxluğu miqrasiyaya mənfi şəkildə təsir edir.[15] Onu da qeyd etmək lazımdır ki, bu nəzəriyyə öz aktuallığını hələ də qoruyur.

## İtələmə və Cəzbetmə

"İtələmə və cəzbetmə" ("Pull-Push") ən mühüm miqrasiya nəzəriyyələrindən biridir. "İtələmə və cəzbetmə" barədə Boq və Ştouffer fərdi şəkildə araşdırma aparmışdır.[16] Bu nəzəriyyəni ilk dəfə sistemləşdirən Everet Lidir. Onun 1966-cı ildə nəşr etdirdiyi "Miqrasiya nəzəriyyəsi" ("A Theory of Migration") adlı məqaləsində irəli sürdüyü fikirlər özündən sonra gələn tədqiqatçılar tərəfindən əlavələr edilərək genişləndirilmişdir.[17] Li miqrasiya prosesində 4 faktorun olduğunu vurğulamışdır:

1. Əvvəlki yaşayış yeri ilə bağlı faktorlar.
2. Köç ediləcək yerlə bağlı faktorlar.
3. Miqrasiya zamanı ortaya çıxacaq maneələr.
4. Fərdi seçim faktorları.

Liyə görə, həm daimi, həm də köç ediləcək yerlərdə itələyən və cəzb edən faktorlar vardır. Neqativ halların çoxluğu miqrasiyada itələməyə səbəb olur. Miqrasiya üçün seçilən yerlərdəki müsbət hallar isə cəlbedici faktorlara aiddir. İtələmə faktorları sürətli demoqrafik inkişaf, işsizliyin çox olması, iqtisadi çətinliklər və siyasi təzyiqlərdir. Cəzbedici faktor isə əmək resurslarına olan tələbatın çoxluğu, boş ərazi, iqtisadi imkan və siyasi azadlıqdır.[18]

---

[15] Savaş Çağlayan, "Göç Kuramları, Göç ve Göçmen İlişkisi", **Muğla Üniversitesi Sosyal Bilimler Dergisi**, Güz 2006, sy. 17, s.78

[16] Jansen, s. 12-14; Stouffer, s. 846.

[17] Everett S. Lee, "A Theory of Migration", **Demography**, c. 3, sy. 1, 1966, s. 47-57.

[18] Lee, s. 50.

Linin nəzəriyyəsinə görə, insan bir yerə köçməyə qərar verməmişdən əvvəl edəcəyi miqrasiyanın ona vəd etdiyi qazancları və zərərləri nəzərə alan rasional varlıqdır.[19]

İtələmə və cəzbetmə faktorları şəxslərin mühakiməsinə görə dəyişir, yəni nisbidir. Birinin itələyici qəbul etdiyi faktorun digər şəxs tərəfindən cəzbedici və ya neytral şəkildə qiymətləndirilməsi mümkündür.

## Mərkəz-periferiya nəzəriyyəsi (center-periphery)

"Mərkəz-periferiya nəzəriyyəsi" ən çox istifadə olunan miqrasiya nəzəriyyələrindən biridir. Nəzəriyyənin əsas predmeti inkişaf etmiş ölkələrlə inkişafda olan ölkələrin mərkəz və periferiya problemidir. Bu nəzəriyyə Pol Baran, Andre Qunder Frank, İmmanuel Vallerştayn və Samir Amin kimi məşhur düşüncə adamlarının mənsub olduğu "*Asılılıq məktəbi*" tərəfindən irəli sürülmüşdür. Bu məktəbin nümayəndələri dünyanın mərkəz və periferiya şəklində iki yerə bölündüyünü iddia edirlər.[20] Hər iki dünya iqtisadi mövcudluğunu davam etdirmək üçün bir-birindən asılıdır.[21]

Nəzəriyyədə periferiya dövlətlərin mərkəz dövlətlərdən asılılığı vurğulanır. Bəzi tədqiqatçılara görə, bu fikir mübahisəlidir.[22] Çünki asılılıq heç vaxt təktərəfli olmur. Periferiya ölkələr hər nə qədər inkişaf etməsələr də, xammal və ucuz əmək resursları baxımından inkişaf etmiş ölkələrin kapitalını artırırlar. Hətta mərkəz ölkələri özlərindən asılı vəziyyətdə saxlayırlar. Bu vəziyyətin davam etməsi mərkəz ölkələrin maraqlarına xidmət edir.

---

[19] Lee, s.51
[20] Yalçın, s.35
[21] Çağlayan, s.78
[22] Yalçın, s.35-36

## Miqrasiya sistemləri nəzəriyyəsi

Bu nəzəriyyədə makro və mikro faktorlar birlikdə analiz edilir. Dövlətlərarası müstəmləkəçilik, ictimai-siyasi, ticari və mədəni əlaqələr əsasında bağlanmış müqavilələrə əsaslanan miqrasiya növüdür. Bu nəzəriyyədə miqrasiya prosesi deduktiv metodla şərh edilir.[23]

Hindistan, Pakistan və Banqladeş kimi ölkələrdən olan miqrantların İngiltərəni seçməsi, Şimali Afrika ölkələrindən olan miqrantların isə daha çox Fransaya köç etməsi onlar arasındakı müstəmləkəçilik əlaqələri ilə bağlıdır. Bəzi ölkələr isə miqrasiya müqavilələri imzalayır və miqrasiyanı həmin müqavilələr çərçivəsində tənzimləyirlər. Meksika və ABŞ, Almaniya və Türkiyə arasında bağlanmış müqavilələri misal göstərmək olar. Birinciyə həmsərhəd ölkə amili, ikinciyə isə XIX əsrin sonlarından etibarən Osmanlı dövləti ilə Almaniya arasında yaranan yaxın siyasi əlaqələr aiddir.

Bu nəzəriyyəni inkişaf etdirən şəxs Tomas Faistdir. O, "Miqrasiya sistemləri nəzəriyyəsi"ni "Dünya sistemi nəzəriyyəsi" ilə "Sosial şəbəkə nəzəriyyəsi" arasında keçid kimi şərh etmişdir.[24] Faistin nəzəriyyə haqqında fikirləri əhəmiyyətlidir. Birincisi, bu nəzəriyyə miqrasiyanın ortaya çıxdığı şəraiti formalaşdırır. "Miqrasiya sistemləri nəzəriyyəsi" ilə iki və daha çox ölkə arasında əlaqə yaranır. İkincisi, miqrasiya tək səfərlik hərəkət olmadığı üçün bu prosesin davam etməsində ortaya çıxan faktorlar mövzunun şərhində mühüm yer tutur. Proses intensivləşir. Üçüncüsü, miqrasiyanın təsvir və şərh edilməsində sosial şəbəkə əsas faktor hesab olunur.[25]

---

[23] Göker, s.53
[24] Çağlayan, s.83
[25] Göker, s.54

## Sosial şəbəkə nəzəriyyəsi

"Sosial şəbəkə nəzəriyyəsi" digər nəzəriyyələrdən fərqli olaraq miqrasiyanın səbəblərini deyil, mahiyyət və intensivliyini öyrənir. Bu nəzəriyyəyə görə, miqrasiyanı başladan səbəblər zaman keçdikcə ortadan qalxsa da, miqrasiya edən şəxslərin həm gəldikləri ölkələrdə, həm də köçdükləri ölkələrdə qurduqları əlaqələr nəticəsində köç prosesinin davam etməsi mümkündür. Sosial sərmayə şəbəkəsi kimi qəbul olunan bu əlaqələr zənciri miqrasiyanın fasiləsiz şəkildə müxtəlif yollarla davam etməsini təmin edir. Bu səbəbdən miqrasiyanın açıqlanmasında bu nəzəriyyəni əhəmiyyətli hesab edirlər.[26]

Velbertə görə, "Sosial şəbəkə nəzəriyyəsi"nin işləmə mexanizmi belədir: İlk miqrantlar mənşə ölkə ilə hədəf ölkələrin (miqrasiya ediləcək istənilən ölkə) xalqlarını bir-birinə bağlayan güclü bir bünövrə yaradırlar. Bu isə sonrakı mərhələdə mənşə ölkənin vətəndaşlarına miqrasiya üçün geniş imkanlar yaradır. Ortaya çıxan yeni miqrasiya dalğası bu şəbəkəni hərəkət etdirir və köçmək istəyən şəxslər daha əvvəl miqrasiya edənlərin təcrübələrinə istinad edirlər. Beləliklə, miqrasiya öz-özünü davam etdirən bir prosesə çevrilir.[27]

Bu nəzəriyyəyə görə, şəbəkələr miqrasiya prosesinə müsbət təsir göstərir. Miqrantların qurduqları bu şəbəkə sonra gələnlər üçün müsbət və ya mənfi faktorlarla bağlı informasiya təmin etməklə yanaşı, onlara yol xərcləri, miqrasiya tamamlandıqdan sonra işlə təmin olunmaları kimi xidmətlər də göstərir. Sosial şəbəkə və ünsiyyət modeli miqrantın işlərini asanlaşdırır və köç prosesinə müsbət istiqamətdə təsir edir. Şəbəkələr valyutanın, istehlak mallarının, düşüncənin və sosial-mədəni irsin dövriyyəsini də təmin edir.

---

[26] Göker, s. 59

[27] Aktaran: Yalçın, s. 50

## Miqrasiyanın səbəbləri və tələbə miqrasiyası

Yuxarıda daha çox istifadə edilən miqrasiya nəzəriyyələrinə qısa şəkildə nəzər saldıq. Bu nəzəriyyələrdən biri digərindən üstün xüsusiyyətlərə malik deyil, hər biri miqrasiyanı fərqli aspektdən izah etməyə çalışır.

Miqrasiyada mənfidən müsbətə doğru hərəkət mövcuddur, bir çox maddi və mənəvi çətinlikləri də ehtiva edir. Heç kimin rahat həyat tərzini buraxmaq istəmədiyini nəzərə alaraq miqrasiyanın müxtəlif səbəblərlə edildiyini qeyd edə bilərik. Miqrasiyaya səbəb olan faktorlar kimi iqlim və təbii fəlakətlər, iqtisadiyyat, ictimai-siyasi vəziyyət və təhsil almaq istəyini göstərmək mümkündür. Miqrasiya prosesinin sürətlə yayılması və dünya ölkələrinin diqqət mərkəzində olmasının əsas səbəblərindən biri də qloballaşmadır.

## Qloballaşma

Soyuq müharibədən sonra dünyada ən çox müzakirə olunan məsələlərdən biri də qloballaşmadır. Qloballaşma ekologiya, mədəniyyət, iqtisadiyyat, siyasət və qeyri-hökumət təşkilatlarını birlikdə var edən, ancaq birini digərinin içərisində əridərək yox etməyən transmilli prosesdir.[28] Marşal Makluhana görə, qloballaşma "qlobal kənd" ("global village") termini ilə birlikdə inkişaf edən elmi texnologiyanın təmin etdiyi kiçilmədir.[29] Qloballaşmada həlledici rol oynayan qüvvələr dövlətlər deyil, beynəlxalq aktyorlardır (actors). Bu anlayış 1980-ci illərin ortalarına kimi o qədər də əhəmiyyət kəsb etmirdi. Səksəninci illərin ikinci yarısından sonra aktuallaşmışdır. Qloballaşma

---

[28] Ali Yaşar Sarıbay, **Modernitenin İronisi Olarak Globalleşme,** İstanbul: Everest Yayınları, 2004, s.19

[29] Ali Balcı, "Roland Robertson, Küreselleşme ve Kültür", **Bilgi: Sosyal Bilimler Dergisi,** 2006/1, sy.12, s.25-36.

prosesinin başlanğıc nöqtəsini 1492-ci ildə ispanların Əndəlüs dövlətinin varlığına son qoymaları və "Yeni Dünya"nın kəşfi ilə əlaqələndirənlər də vardır.[30] Corc Ritzerə görə isə qloballaşma Xristianlıq və İslamın yayıldığı dövrdən başlayır.[31]

Qloballaşma prosesi XVI əsrdə formalaşmağa başlamışdır. Bu anlayış elm dünyasında ilk dəfə 1980-ci illərdə elm və kommunikasiya texnologiyaları sahəsinin inkişafı nəticəsində kommunikasiya və maliyyə sahələrində istifadə olunmuşdur. 1990-cı illərdən sonra isə sosiologiya, mədəniyyət, media, beynəlxalq münasibətlər və politologiya sahələrində də işlənmə tezliyi qazanmışdır. Bu prosesdə texnologiya qloballaşmanın əsas faktoru, lokomotivi və əvəzolunmaz ünsürüdür. Ancaq texnoloji yenilik və inqilabın iqtisadi, sosial, siyasi və mədəni sahələrə yayılması bir az gec baş vermişdir.[32]

Giddensə görə, qloballaşmanı yalnız iqtisadi səbəblərə bağlamaq yanlışdır. O, qloballaşmanı siyasi, iqtisadi, sosial və mədəni faktorlarla əlaqələndirir. Yəni bu proses elm və kommunikasiya texnologiyalarının inkişafı nəticəsində reallaşır.[33]

Con Tomlinson qloballaşmanı çoxşaxəli bir fenomen kimi qəbul edir.[34] Ritzer isə iqtisadi, siyasi, mədəni qloballaşma, yəni dinin, elmin, miqrasiyanın, səhiyyənin, idman və ali təhsilin qloballaşması tezisi ilə çıxış edir.[35]

XX əsrdə dünya ticarətində olan inkişaf və böyümə qloballaşmanın ən diqqətçəkən tərəfi olmuşdur. Keçən əsrin sonlarına doğru sərmayənin qlobal əhəmiyyəti artmışdır. İqtisadiyyatda beynəlxalq şirkət və qurumlar aparıcı rol oynamağa başlamış-

---

[30] Mustafa Kemal Şan, "Küreselleşme ve Yerel Kültürün Geleceği", **Uluslararası I. Türk Dünyası Sosyologlar Kurultayı**, İzmit: 25-27 Kasım 2005, (Yayınlanmamış Kongre Bildirisi)

[31] Corc Ritzer, Globalization: A Basic Text, Singapur: Graphicraft Limited, 2011, s.249

[32] Mehmet Yunus Çelik, «Boyutları ve Farklı Algılarıyla Küreselleşme», **Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi,** sy.32 (2), s.57.

[33] Anthony Giddens, **Sosyoloji**, İstanbul: Kırmızı Yayınları, 2008, s. 96

[34] John Tomlinson, **Küreselleşme ve Kültür**, *Çev. Arzu Eker*, İstanbul: Ayrıntı Yayınları, 2013, s. 27

[35] Ritzer, s. 44-47

dır. 1980-ci illərdən bəri neoliberal iqtisadi siyasətin tətbiqi və beynəlxalq xarakter daşıyan investisiya dünya bazarında yeni qəliblər və ziddiyyətlər meydana gətirməklə yanaşı, dövlət gücünün və mexanizmlərinin təşkilatlanması və dövlətlərarası münasibətlər üzərində böyük dəyişikliyə səbəb olmuşdur. Yəni dövlətin iqtisadiyyat üzərindəki nüfuzu azalmışdır. Üçüncü minillikdə transmilli şirkətlərin çoxalıb güclənməsi, istehsal və xidmət sahələrinin beynəlxalq xarakter alması, sərmayənin artım dinamikası və qlobal iqtisadi ittifaqların təsiri ilə milli dövlətlərin iqtisadiyata təsiri zəifləmişdir. Bu prosesdə milli dövlətlər iqtisadiyyat, mədəniyyət və milli valyutalarını nəzarətdə saxlama gücünü itirmişdir.

Sürətli yenilənmə dövründə dəyərlərin, həyat tərzinin, vərdişlərin, istehlakın, geyim tərzinin və adət-ənənələrin getdikcə bir-birinə bənzədiyini görürük. Elm və kommunikasiya texnologiyalarının sürətli inkişafı düşüncə, səs, kitab və görüntü kimi şeylərin dünyanın dört bir tərəfinə asanlıqla axışını təmin etməkdədir. Musiqi, film, video, kitab, qəzet və rəsm kimi bir çox maddi vəsaitlərin internet vasitəsilə dünyaya yayılması mümkündür. Artıq eyni düşüncə və mədəniyyətin daşıyıcısı olan şəxslər bir-biriləri ilə daha asan əlaqə qururlar.

Yüksək texnologiya dövründə elm daha qlobal xarakterə malikdir. İnternet elmin qlobal funksiyasını artırmışdır. Çox sayda elmi məcmuə artıq elektron şəkildə dərc olunur və bu materialları dünyanın müxtəlif yerlərində yaşayan elm adamlarının oxuması mümkündür. Bundan əlavə, elm adamları özlərinin elmi yazı və məqalələrini hansısa jurnalın növbəti sayını gözləmək məcburiyyətində qalmadan internet vasitəsilə çap edə bilirlər. Elm adamları arasında əlaqə və əməkdaşlıq daha çox virtual şəkildə reallaşır.[36]

Qloballaşma təktərəfli deyil, bütün sahələrə təsir etmişdir. Dünyada bütün sahələr qloballaşma prosesinə məruz qalmışdır. Kommunikasiya vasitələri, media və texnologiya bu prosesi daha da sürətləndirir. Texnologiya və informasiya vasitələrinin

---

[36] Ritzer, 46-47

həm sürətli inkişafı, həm də onlardan istifadənin kütləviləşməsi yaşadığımız əsri elm və texnologiya əsri kimi qəbul etməyimizə səbəb olmuşdur. Qloballaşma miqrasiya sahəsinə də təsir etmişdir. Beynəlxalq miqrasiya şəbəkələri və informasiyanın sürətlə yayılması miqrasiya prosesinin fərqli müstəvidə qəbul olunmasına şərait yaratmışdır. Keçmişdə başqa bir ölkəyə köçmək istəyən şəxsin gedəcəyi yerlə əlaqə qurması günlərlə, hətta aylarla vaxt alırdı. İndi isə bu proses çox asan və sürətli şəkildə həyata keçirilir. Beləliklə, qloballaşma dövründə miqrasiya edən şəxs geniş imkanlar əldə edir.

Soyuq müharibənin bitməsi dünyanı dəyişdirmişdir. Dünyanın bir çox bölgəsində baş verən müharibələr kütləvi miqrasiyaya səbəb olmuşdur. 2000-ci illərin əvvəlindən etibarən ABŞ-ın Yaxın Şərqlə bağlı yürütdüyü siyasət və gördüyü işlər, İraq müharibəsi, Liviyada yaşanan daxili çəkişmələr, Suriyada hələ də davam edən müharibə miqrasiya axınlarına səbəb olmuş və bu məsələ dünyanın, xüsusilə də Avropa İttifaqının əsas problemlərindən birinə çevrilmişdir. Dünyada baş verən iqtisadi böhranlar və inkişaf etmiş ölkələrlə digər ölkələrin rifah səviyyəsi arasındakı fərqin kəskin şəkildə çoxalması miqrasiya prosesinə təsir etmişdir.

Ritzer kütləvi şəkildə baş verən miqrasiyanın qloballaşmaya təsir etdiyini qeyd etməklə yanaşı, 1990-cı ildə dünyadakı 190 milyon miqrantın dünya əhalisinin 3 faizini təşkil etdiyini bildirir.[37] BMT-nin 2015-ci ilə aid miqrasiya hesabatında isə miqrantların sayı 22% (232 milyon) artmışdır.

Miqrasiya prosesini "qlobal insan axınları" adlandıran Ritzer qeyd edir ki, insan axınlarının qarşısı milli dövlətlər tərəfindən alınır və miqrantların sayı ilə bağlı verilən məlumatlar dəqiq deyildir. Hətta bir çox ölkə miqrantlarla bağlı qeydiyyat aparmır və ya əlindəki məlumatları beynəlxalq təşkilatlarla paylaşmır.[38]

---

[37] Ritzer, s. 298

[38] Ritzer, s. 300

Milli dövlətlər illeqal miqrasiyanın qarşısını almağa çalışır və leqal miqrasiya üçün də bəzi məhdudiyyətlər qoyurlar. Dövlətlərin yaratdığı müxtəlif maneələrə baxmayaraq texnoloji inkişaf və sürətli valyuta köçürmələrinə imkan verən yeniliklər miqrasiyanı təşviq etməkdədir. İtələmə və cəzbetmə nəzəriyyəsi miqrantların yaratdığı miqrasiya şəbəkələrinin rolunu qeyd etməyə imkan verir. Miqrant olmağa namizəd şəxsin motivasiyasının aşağı olması, yaşadığı yerdən gedəcəyi yerə çatmasına mane olacaq səbəblər, o cümlədən müharibə, aclıq, siyasi təzyiq və iqtisadi böhran itələyici faktorlardır. Gediləcək ölkədə müsbət miqrasiya siyasətinin mövcud olması, yüksək əmək haqqı, işsizliyin az olması, rəsmi və qeyri-rəsmi miqrasiya şəbəkələrinin mövcudluğu, mədəniyyət və dil yaxınlığı cəzbedici səbəblərdir.

## Beynəlxalq tələbə miqrasiyası

Məskunlaşma şərtini nəzərə alıb təhsil almaq üçün öz ölkəsindən başqa bir ölkəyə gedən şəxs tələbə miqrasiyasına (student migration) sahib olur. Tələbə miqrasiyasının tərifi BMT-nin miqrasiya əsasnaməsində də verilir. Kapuano, Mörfi-Lejeun və Raquram kimi bir çox tədqiqatçılar sosial reallıq və tələbə axınını miqrasiya sosiologiyası kontekstində şərh edirlər. Tələbə miqrasiyası transmilli və mədəni xüsusiyyəti ilə də fərqlənir. "Erasmus" proqramı çərçivəsində fərdlərin ölkələrindən müxtəlif məqsədlərlə ayrılıb müvəqqəti, yaxud daimi olmaqla başqa bir ölkəyə köçmələri miqrasiyanın tərkib hissəsinə çevrilmişdir. Klassik miqrasiya nəzəriyyəsi tələbə köçünü sosial-mədəni və iqtisadi cəhətdən analiz edir. Xaricdə təhsil alan tələbələrin təhsil müddətləri bitdikdən sonra işləmək məqsədilə daimi məskunlaşmaları da tədqiqata cəlb edilir. Bu mövzu miqrasiya sosiologiyası baxımından da əhəmiyyətlidir.[39] Beynəlxalq miqrasiyada tələbələrin məskunlaşma müddəti də nəzərə alınır.

[39] İsmail Güllü, "Yeni Bir Göç Türü Olarak Öğrenci Göçü, Kimlik ve Dindarlık Üzerine Sosyolojik Bir Analiz", **Uluslararası Sosyal Araştırmalar Dergisi**, c. 9, sy. 42, (2016), s. 1107

Hər hansı bir tələbə mübadiləsi proqramı çərçivəsində bir ildən az müddətə edilən tələbə köçü tələbə miqrasiyası sayılmır. Təhsil xaricində edilən miqrasiya da bu kateqoriyaya aid edilmir. Məsələn, ali təhsil alan bir tələbənin "Work and Travel" ("İş və səyahət") kimi proqramlar vasitəsilə hər hansı bir ölkəyə səyahəti miqrasiya kateqoriyasına daxil edilmir.

Tələbə miqrasiyası şəxsi seçimlərlə başlayan bir prosesdir. Bu mövzudakı tədqiqatların çoxu "Beynəlxalq Tələbə Hərəkətliliyi" adı altında aparılır. Təhsil müddəti bitdikdən sonra geri qayıtmaq və ya həmin ölkədə qalıb iş həyatına başlamaq mümkündür. Raqurama görə, tələbə miqrasiyası beyin axınının bünövrəsini təşkil edir. [40] İş və ailə faktoru təhsil prosesi ilə paralellik təşkil edir və bu reallığı nəzərə almaq lazımdır. Buna görə də tələbə miqrasiyası çoxşaxəli sosial proses kimi analiz edilməlidir.

Yaxın tarixə qədər dünyada beyin axını, tələbə miqrasiyası və elm adamlarının mübadiləsi SSRİ və digər Şərq bloku ölkələrinə aid edilmirdi. Ancaq 1990-cı ildən etibarən elm adamları bu ölkələrdən və türkdilli dövlətlərdən ABŞ başda olmaqla Avropa, Türkiyə və Meksikaya köçməyə başladılar. Elm adamlarının miqrasiyası ilə paralel şəkildə tələbə miqrasiyası da başladı. Qərb ölkələri tələbə və elm adamlarını cəlb etmək üçün müxtəlif proqramlar həyata keçirməyə başladılar.[41] Beləliklə, tələbə mübadilə proqramları daha da təkmilləşdi və hal-hazırda bütün dünyada aktualdır. Tələbə miqrasiyasının inkişaf dinamikası beynəlxalq təşkilatların hesabatlarında da əks olunur.

Sənaye cəmiyyətlərində elmə istinad edən istehsal əhəmiyyətli idi. Müasir dövrdə insanlar elmi təkbaşına əldə etmək istəyirlər. İstehsal və səneye dövrü yerini yüksək texnologiyalar və informasiya əsrinə təhvil verdikdən sonra yayılması və daşınması olduqca asan olan informasiya hər kəsin əldə etmək

---

[40] Raghuram Parvati, "Theorising the Spaces of Student Migration", **Population Space and Place** (2013), sy.19/2, s.138-154.

[41] Berrak Kurtuluş, ABD'ne Türk Beyin Göçü, İstanbul: Alfa Basım Yayım Dağıtım, 1999, s. 15

istədiyi ən aparıcı bilik mənbəyinə çevrilmişdir. İstehlak cəmiyyəti bilik və məlumatı sürətli şəkildə qəbul edir. Elm və informasiyaya sahib olmaq istəyi qədim zamanlardan bəri var. İnsanlar bunun üçün məktəblərə gedir, uzaq məsafələrə səyahət edirdilər. Ancaq qloballaşma, elm əldə etmə istəyinin geniş yayılması və informasiyanın təkbaşına gücə çevrilməsi dövlət, şirkət və ayrı-ayrı şəxslərin onu əldə etmə istəyini artırmışdır. Bu prosesdə elm və informasiya sahəsində qlobal rəqabət daha da sürətlənmişdir. Qlobal rəqabət beynəlxalq təhsilə, xüsusilə də ali təhsilə olan ehtiyacı daha da artırmışdır.

İnformasiya əsrində maliyyə kapitalı deyil, insanmərkəzli sərmayə əsasdır. Yəni maliyyə ehtiyatları insan kapitalını formalaşdıran elm və təhsilə xərclənir. Təhsil insanlara bir çox sahədə faydalı seçimlər təqdim etməklə onların xəstəlik və kasıblıqla mübarizəsində əhəmiyyətli rol oynayır. Nəzəri və praktiki əhəmiyyəti olan təhsil sosial rifah səviyyəsini yüksəldir və qlobal əməkdaşlığı artırır. Təhsil tənqidi yanaşma və yaradıcı qabiliyyətin inkişafına da təsir edir.[42]

Dünya qloballaşma və yüksək texnologiyalar dövründə zaman və məkan müstəvisində kiçilmişdir. Rabitə və informasiya vasitələri informasiya mübadiləsi və transferini asanlaşdırmışdır. Bu baxımdan zaman və məkan sərhədləri daralmışdır. Qiyabi və "onlayn" təhsil kimi yeni təhsil metodları buna əyani sübutdur. Ancaq əyani təhsil metodu universitetlərdə hələ də öz populyarlığını qoruyub saxlayır. Hətta bu seçim getdikcə daha da artır. Qloballaşma prosesi təhsil almaq istəyini artırmış, bu vəziyyət həm milli dövlətlərin öz sərhədləri daxilində, həm də xaricdə təhsil almaq məqsədilə edilən miqrasiyaya müsbət təsir etmişdir. Paralel olaraq bir çox şirkətlər daha çox gəlir əldə etmək üçün cəzbedici təhsil proqramları hazırlayır və beynəlxalq tələbə miqrasiyasının təmin etdiyi qazancdan pay alma yarışına qoşulurlar. Ölkə iqtisadiyyatına verdiyi faydalara

---

[42] Mustafayeva ve Bayraktaroğlu, "Türk Yükseköğretim Sistemi ve Türk Dünyası İlişkileri: Sakarya Üniversitesi'nde Eğitim Gören Yabancı Uyruklu Öğrenciler Örneği", **Journal of Azerbaijani Studies,** c.11, sy. 1-2, s. 281-292.

görə tələbə miqrasiyası təşviq edilir və daha çox tələbə cəlb etmək üçün müəyyən fürsətlər təqdim edilir. Təşviq və fürsətlərə təqaüd proqramları, qalacaq yer (yataqxana) və yarım-ştat işləmə hüququ aiddir. Tələbələr təhsil aldıqları ölkələrin iqtisadiyyatına fayda verir və sonrakı mərhələdə ixtisaslı miqrant statusuna sahib olurlar. Beləliklə, həmin ölkədə ali təhsilli, potensial işçi bazası yaranır. Beynəlxalq səviyyədə təhsil verən universitetlər qlobal müstəvidə rəqabətə cavab verə bilmək üçün tələbə miqrasiyasına möhtacdırlar.[43]

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) hesabatına görə, 1975-ci ildə dünyada beynəlxalq tələbə sayı 800 min olmuşdur və bu göstərici 2002-2012-ci illərdə ciddi şəkildə artmışdır (2.1-4.5 milyon). Hesablamalar göstərir ki, 2020-ci ildə beynəlxalq tələbə sayı 8 milyona qədər artacaq .[44]

**Tablo 1**

**Beynəlxalq tələbə sayının artım dinamikası**




**Mənbə:** OECD, Education at a Glance 2014, s.344.

Yuxarıdakı tabloya baxdığımız zaman beynəlxalq tələbələrin sayının daha da artacağını, onların köçünün miqrasiyada əhəmiyyətli yer tutacağını qeyd etmək mümkündür.

Transmilli tələbə miqrasiyasının qədim dövrdən bəri davam etdiyini qeyd etmişdik. İnsanlar elm üçün yüzlərlə kilometr məsafə qət edirdilər. Səmavi din olan İslamda elm öyrənməyə təşviq həmişə güclü olmuşdur. "Elm Çində də olsa, onun dalınca gedin" şüarını izləyən Rihlə (Hədis axtaran insanların çıxdıqları səyahətlərə verilən ad – red.) hərəkatı orta əsrlər boyunca bir

[43] Parvati, "Theorising the Spaces of Student Migration", **Population Space and Place** (2013), sy.19/2, s.138-139.

[44] OECD, **Education at a Glance: OECD Indicators,** [Y. Y.]: 2014, s.344.

ənənə şəklində davam etmişdir. Bir hədisdən ötrü Orta Asiyadan Misirə qədər səyahət edildiyinə, elm üçün, onun yox olmadan sonrakı nəsillərə ötürülməsi üçün nə qədər həssas davranıldığına dair İslam tarixində çox sayda hədis mövcuddur. Tələbə miqrasiyası sadə bir yerdəyişmə kimi başa düşülməməlidir. Tələbə miqrasiyası fərqli mədəniyyətlərin qarşılaşması və mübadiləsi kimi sosial əlaqələri ehtiva etməkdədir.

Mövcud tələbə miqrasiyası həm də ciddi gəlir mənbəyidir. Belə ki, tələbə gedəcəyi ölkə və universitetin büdcəsinə birbaşa xeyir verir. Ona görə də inkişaf etmiş ölkələr bu sahədə rəqabət aparırlar.

Beynəlxalq tələbə bazarına ABŞ, İngiltərə, Kanada və Fransa kimi inkişaf etmiş ölkələr liderlik edirlər. Çin, Malayziya, Cənubi Koreya, Rusiya, Brazilya kimi inkişaf etməkdə olan ölkələr də getdikcə cazibə mərkəzinə çevrilirlər. Misal kimi qeyd edə bilərik ki, Avstraliya 2010-cu ildə tələbə miqrasiyasından 19,1 milyard dollar qazanc əldə etmişdir.[45]

2014-cü il hesabatına görə, beynəlxalq tələbələrdən 82%-i G20, 75%-i İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı ölkələrində təhsil alırlar. Şimali Amerika və Avropa ölkələrində oxumaq istəyən tələbələrin 16 faizi ABŞ-ı seçmişdir. ABŞ-dan sonra sıralamaya İngiltərə (13%), Almaniya (6%), Fransa (6%) və Avstraliya (6%)[46] başçılıq edir. Türkiyədə isə 2017-2018-ci tədris ilində 114 mindən çox beynəlxalq tələbə təhsil almışdır.[47]

Beynəlxalq tələbə miqrasiyasının əhəmiyyəti yalnız iqtisadi səbəblərlə məhdudlaşmır. Sosial-mədəni əlaqələr də vacibdir.[48]

---

[45] Mine Gözübüyük Tamer, **Yükseköğretimin Küreselleşen Aktörleri: Uluslararası Öğrenciler**, Trabzon: Siyasal Kitapevi, 2014, s. 16

[46] OECD, s. 344

[47] YÖK İstatistikleri, https://istatistik.yok.gov.tr; Yabancı uyruklu Öğrencilerin uyruklarına göre Sayıları (2017-2018) (Baxış tarixi: 07.02.2019)

[48] Beynəlxalq tələbə miqrasiyasındakı motivasiya ünsürləri ilə bağlı məlumat üçün baxın, Riko Novak, Anja Slatinšek, Gabrijel Devetak, "Importance of Motivating Factors for International Mobility of Students: Empirical Findings on Selected Higher Education Institutions in Europe", **Organizacija**, c.46, sy.6, s.274-280.

Məsələn, Avropa İttifaqı tələbə hərəkətliliyinin artışını təşviq edərkən ölkələrarası mədəniyyət mübadiləsi kontekstində Qərbə aid təhsil və tədqiqatları yaymağı və öz dəyərlərini təbliğ etməyi planlaşdırır. Ona görə də tələbə miqrasiyası bütün dünyada əhəmiyyətli məsələdir.[49]

[49] Gözübüyük Tamer, s. 15-16

*İkinci Fəsil*
# Mədəniyyət mübadiləsi və sosial inteqrasiya

Miqrasiya sosiologiyası nəzəriyyələrlə yanaşı, kimlik, mədəniyyət mübadiləsi, assimilyasiya və inteqrasiya kimi məsələlərlə də məşğul olur. Miqrantların özləri ilə apardıqları sosial-mədəni dəyərlər və məskunlaşdıqları yerdə yaşayan insanlarla qarşılıqlı əlaqə zamanı baş verən proses sosiologiyanın əsas mövzularından biridir.

## Kimlik

Kimlik fərdin özünü anlama və ifadə etmə şəklidir. Bu anlayış tədqiqata modernizmlə birlikdə cəlb edilmişdir. Kimlik mövzusu antropologiya, fəlsəfə, psixologiya, politologiya və sosiologiyada müxtəlif aspektlərdən analiz edilmişdir.[50] Kimliyin ən sadə tərifi şəxs, qrup və cəmiyyətlərin "kimsiniz?", "kimlərdənsiniz?" suallarına verdikləri cavab kimi xarakterizə olunur. Misal üçün, Anar adlı şəxsə "siz kimsiniz?" sualını versək, "Mən Anar Quliyevəm" cavabını verəcək. Bu cavabdan sonra həmin şəxsin azərbaycanlı olması və Quliyevlər ailəsinə mənsubluğu müəyyənləşir. "Hansı Anar?" sualına isə "Gəncədən dəmirçi Əhmədin qardaşıyam" kimi təfsilatlı cavab verə bilər. Bu cavablar onun kimliyini ifadə etmə şəklidir.[51] Kimlik fərdi digər şəxslərdən ayıran və eyni zamanda digər fərdlər, qruplar və cəmiyyətlə ortaq nöqtədə birləşdirən bir məfhumdur.

---

[50] Mustafa Altunoğlu, "Kimlik'in Modern İnşası, Kimlik Politikaları ve Türkiye'de Kimlik Tartışmaları", (**Yayınlanmamış Doktora Tezi**, Gazi Üniversitesi SBE, 2009), s. 6-15

[51] Bozkurt Güvenç, **Türk Kimliği: Kültür Tarihinin Kaynakları**, Ankara: Kültür Bakanlığı, 1993, s. 3

Biz ortaq dəyər və əlaqələrə üstünlük veririk. Təbii ki, fərqli cəhətlərimiz də vardır. Ancaq bilərək və ya fərqində olmadan kimlərdən olduğumuzu, yaxud da kimlərin tərəfində durduğumuzu müəyyənləşdirərkən kimlərdən olmadığımızı, ya da kimlərin qarşısında olduğumuzu da müəyyən etmiş oluruq. Hətta kim olduğumuzu və kimlərə qarşı mübarizə apardığımızı öyrənirik. Bununla bağlı ərəb atalar sözü var: "Qardaşıma qarşı mən, əmimoğluna qarşı qardaşım və mən, yadlara qarşı əmimoğlu, qardaşım və mən".[52]

Kimliyin başqası ilə münasibət kontekstində ziddiyyətli anlaşılması təbiidir. Çünki kimliyin qeyri-müəyyən bir problem kimi ortaya çıxmasında başqası əhəmiyyətli rol oynayır. Fərd özünü kimlik dünyası içərisində görüb izah etməyə başladığı vaxt başqası ilə bağlı təsviri düşüncəyə müraciət etmək məcburiyyətində qalır. Bir şəxsin özü ilə bağlı düşüncəsi başqa birinin varlığını zəruri edir. "Mən" və digəri anlayışı həlledici xarakterə malikdir. Kimliyin mövcudluğu "mən"dən daha çox başqasını (özgəni) şərh etmək üçündür.[53] Yəni insanlar digər şəxslərlə əlaqədə olduqları müddətdə özlərini başqalarına görə təsvir edirlər. Oxşar cəhətlərinə görə bir-biriləri ilə qaynayıb-qarışır, fərqli cəhətlərinə görə isə ayrılırlar.[54] Fərdi kimliklərin yaranması ancaq şəxslər arasında olan əlaqələrlə mümkündür.[55]

Ailə xaricindəki qrupların özlərini kimlik cəhətdən təsvir etdikləri zaman tarixi və mədəni şərtlər həlledici olur. "Kimsiniz, kimlərdənsiniz?" suallarına verəcəkləri cavablar onların dünyagörüşünə əsaslanır. Deməli, cavablar zaman, məkan və o mühitdəki sosial şərtlərə görə dəyişə bilir.[56]

Bir şəxs eyni vaxtda bir neçə kimliyə sahib ola bilər. Bu kimliklər müxtəlif səbəblərə görə verilir və ya əldə edilir. Zamanla

---

[52] Güvenç, **Türk Kimliği: Kültür Tarihinin Kaynakları,** s. 3

[53] Göker, s. 79

[54] Samuel Huntington, **Biz Kimiz? Amerika'nın Ulusal Kimlik Arayışı**, *çev. Aytül Özer*, İstanbul: CSA Global Yayın Ajansı, 2004, s. 21-22

[55] Nuri Bilgin, **Sosyal Bilimlerin Kavşağında Kimlik Sorunu**, İzmir: Ege Yayıncılık, 1996; s.53

[56] Güvenç, **Türk Kimliği: Kültür Tarihinin Kaynakları,** s. 4

insan bəzi kimliklərdən uzaqlaşa da bilər. Misal üçün, xristian olan biri bir müddətdən sonra müsəlman və ya ateist ola bilər. Yaxud xarrat olan biri sonradan başqa bir sənət öyrənərək xarrat kimliyindən ayrıla bilər. Burada fərdin bir kimliyi tərk etdiyi vaxt onun yerini başqa bir kimliklə doldurduğunu da görmək mümkündür. Fərd-qrup-cəmiyyət modelində ən çox kimliyə sahib olan fərddir. Sonra onu qrup və cəmiyyət (xalq) izləyir. Yenə də ən çox kimlik dəyişən fərddir. Cəmiyyətin sahib olduğu kimlikləri dəyişdirməsi (dini, coğrafi, etnik) çətin və uzunmüddətli prosesdir.

Kimliklə bağlı olan məfhumlardan biri də mənlikdir. Mənlik bir şəxsi xüsusiyyətlərinə görə təsvir edən, onu digərlərindən ayıran və onunla digər şəxslər arasındakı fərqi vurğulayan bir məfhumdur. Kimlik məfhumu isə fərdin cəmiyyət içərisindəki statusu ilə əlaqəlidir. Hər ikisi dinamik keyfiyyətə malikdir.[57] Fərdin və ya qrupun mənlik şüuru məsələsində elm adamları ortaq görüşü təmsil edirlər. "Mən və ya biz varlıq olaraq məni səndən, bizi sizdən fərqləndirən xüsusiyyətlərə sahibik".[58]

Kimlik şəxsin özü tərəfindən təsvir olunsa da, o həmin şəxsin digərləri ilə olan münasibətində ortaya çıxır. Bir şəxs və ya qrupun digərləri tərəfindən qəbul olunma forması, bu şəxs və ya qrupun özünü təsvir etməsinə təsir edir. Fərd yeni bir ictimai mühitdə ora aid olmayan, yad biri kimi qəbul ediləndə həmin qrupun düşüncə tərzini mənimsəməyə çalışır.[59] Hər kəs böyüyüb boya-başa çatdığı cəmiyyətin mədəni xüsusiyyətlərini mənimsəyir, qazanacağı kimliklər bu cəmiyyətə aid dəyərlərlə formalaşır, yəni dünyaya gəldiyi coğrafi məkanın, qitənin xüsusiyyətləri fərdin kimliyinə təsir edir.

Türk alim Nuri Bilgin sosiallaşmanı kimliyin formalaşma prosesi kimi şərh edir. Bilginə görə, fərd hələ uşaq yaşlarından aid olduğu cəmiyyət və qrupların (birinci aidiyyət qrupları) dəyər və normalarını mənimsəyərək sosiallaşır. Fərd öz şəxsiy-

[57] Göker, s. 80
[58] Huntington, s.21
[59] Huntington, s.23

yətini ətrafındakılarla interaktiv dinamika içərisində qazanır və uşaqlıq dövründən sonra da müxtəlif qruplar içərisində sosiallaşma davam edir. Hər bir fərd müxtəlif qruplara üzv olaraq həyatını davam etdirir. Bu qruplar fərdin cəmiyyət və ətraf mühitlə münasibətində vasitəçi funksiya daşıyır və sosial kimliyi formalaşdırır.[60]

Xantinqtona görə, kimliyin mənbələri sonsuzdur. O, kimliyin 6 əsas xüsusiyyətini qeyd edir:[61]

1. Yaş, soy-kök, cinsiyyət, ailə (qan bağları), etnik və irqi kimliklər.

2. Klan, qəbilə, etnos, dil, vətəndaşlıq, din və mədəniyyət kimlikləri.

3. Kənd, ətraf mühit, şəhər, dövlət, bölgə və qitənin daxil olduğu regional kimliklər.

4. Qrup, komitə, lider, partiya və ideologiyanın aid olduğu siyasi kimliklər.

5. İş, vəzifə, peşə, işçi qrupu, iş verən qurum və ya şəxs, sənaye, iqtisadiyyat və həmkarlar ittifaqlarına məxsus kimliklər.

6. Dost, həmkar, fəaliyyət qrupu, klub, status kimi sosial kimliklər.

Sosioloji kimlik nəzəriyyəsinə görə, fərdlər cəmiyyətdə birdən çox qrupa üzv ola bilərlər. Buna görə də birdən çox kimliyə sahib olmaq mümkündür. Təbii ki, onların bu kimliklərlə əlaqəsi eyni səviyyədə deyil. Kimliklərə verilən əhəmiyyət onların fayda və davamlılıq dərəcəsini müəyyənləşdirir. Fərdin kimliyini mühafizə etmək cəhdi onun ictimai əlaqəsini (bağını) və aid olduğu qrupla münasibətlərini tənzimləyir. Kimlik fərdin sosiallaşma prosesində ictimai dəyərlərlə bütünləşməsi və özünü ifadə etməsi kimi qəbul edilir.[62] Bir çox fərd şəxsi kimliyini formalaşdırarkən din, irq, sinif, etnopsixologiya və milliyyət

[60] Nuri Bilgin, **İnsan İlişkileri ve Kimlik**, İstanbul: Sistem Yayıncılık, 1996; s. 7-8

[61] Huntington, s. 27

[62] Göker, s. 88

kimi qrup bağlarına istinad edir. Bu xüsusiyyətlər fərd və onun şəxsiyyətini xarakterizə etməyə kömək edir.[63]

Sosial kimlik nəzəriyyəsinin qurucuları Henri Tajfel və Con Turner ictimai əlaqə və qruplar arasındakı münasibətləri dəqiqləşdirmək üçün aşağıdakı hipotezləri müəyyən etmişdir:

1) Fərd özünü üzv olduğu qrup və qruplar əsasında təsvir edir və dəyərləndirir. Aidiyyət hissi fərdi aid olduğu qrupla eyniləşdirir. Bu eyniləşdirmə nəticəsində də şəxsiyyət (kimlik) ortaya çıxır.

2) Fərd ətrafında olan sosial qrupları öz qrupunun yerini müəyyənləşdirmək üçün təhlil edir.

3) Fərdin qazandığı kimliyin müsbət və ya mənfi olması aid olduğu qrupun strukturundan asılıdır. Belə ki, bu qrupun sosial mövqeyi digər qruplarla müqayisədə zəifdirsə, sosial kimlik mənfi şəkildə qiymətləndirilir.[64]

## Mədəniyyət və onun qloballaşması

Mədəniyyət keçmişdən gələcəyə doğru hərəkət edən sosial miras və dəyərlər toplusudur, zaman keçdikcə özünü yeniləyir və başqa mədəniyyətlərlə qarşılıqlı təsir və əks-təsir əlaqəsinə girir. İnsan duyğusal varlıq olduğu üçün başqa mədəniyyətlərdən təsirlənir və inkişaf edir. Buna görə də "heç vaxt dəyişməyən, qapalı mədəniyyət yoxdur".[65] Mədəniyyət bir cəmiyyətin fərdlərinin birlikdə sahib olduğu və onların davranışlarına təsir edən fikir, dəyər, norma və hisslərdir. Mədəniyyət cəmiyyətin bütün üzvləri tərəfindən qəbul olunur. Deməli, başa düşülən, qəbul edilməsi mümkün olan davranışlar yaradır. Mədəniyyət bioloji miras deyildir, öyrənilir və bütöv şəkildə funksionallıq göstərir.[66]

---

[63] Jorge Larrain, **İdeoloji ve Kültürel Kimlik**, *çev. Neşe Nur Domaniç*, İstanbul: Sarmal Yayınevi, 1995, s. 212

[64] Göker, s. 88-89

[65] Osman Özkul, **Kültür ve Küreselleşme: Kültür Sosyolojisine Giriş**, 1. Baskı, İstanbul: Açılımkitap, 2008, s. 26-28

[66] Haviland, William ve diğerleri, **Kültürel Antropoloji**, *Çeviri: İnan Deniz*

Tomlinsona görə, mədəniyyət hər şeydən əvvəl insanların simvolik təmsil təcrübələri ilə məna qazandırmağa çalışdıqları həyat tərzidir. Yəni mədəniyyət yalnız elit təbəqəyə aid olan spesifik bir həyat tərzi deyil, gündəlik həyatın bütün sahələrini əhatə edir.[67]

Mədəniyyət cəmiyyətin bütün fərdləri tərəfindən qəbul olunur və onlar arasında paylaşılan dəyər, fikir və davranışların nizamı rolunu oynayır. Cəmiyyətin bütün üzvləri tərəfindən qəbul olunmasına baxmayaraq mədəniyyət eynilik demək deyil. Hər hansı iki şəxs təmsil etdiyi mədəniyyətin bütün xüsusiyyətini əks etdirməyə bilər. Onların fərqli davranışlar nümayiş etdirmələri normaldır.[68]

XX əsrin sonlarından etibarən qloballaşmanın təsir etdiyi mühüm sahələrdən biri də mədəniyyətdir. İnkişaf etmiş rabitə və informasiya texnologiyaları vasitəsilə informasiya və mədəni resursların rəqəmsal mühitə keçirilərək sürətlə yayılmasına şərait yaranmışdır. Hətta dünyanın ucqar bir yerində yaşayan hər hansı kənd sakininin həyat tərzi və adət-ənənəsi müşahidə edilə bilir.

Mədəniyyət qloballaşmanın üç əsas (iqtisadiyyat, siyasət və mədəniyyət) hissəsindən biri kimi qəbul olunur.[69] Böyük hissəsi fikir, yazı, görüntü və səslərdən ibarət olan bu anlayış dünyanın dörd bir tərəfinə daha asan yayılır. Bu proses texnogen bir cəmiyyətdə daha sürətli və asan şəkildə baş verir. Çünki yüksək texnologiya imkanları rəqəmsal bir dünya formalaşdırır. Film, video, musiqi, kitab, qəzet və şəkillər. Rəqəmsal mədəniyyətin vəsaitləri qlobal müstəvidə nümayiş oluna bilir. Özlərini eyni mədəni sivilizasiyaya məxsus hesab edən fərdlər bu şəkildə sosial şəbəkələr, elektron poçt və digər internet resursları vasitə-

---

*Erguvan Sarıoğlu*, İstanbul: Kaknüs Yayınları, 2008, s. 102-103

[67] Tomlinson, s. 35-37

[68] Haviland, William ve diğerleri, s.104

[69] Tomlinson, s. 35

silə bir-biriləri ilə əlaqə qurur, münasibətlərini virtual şəkildə davam etdirirlər.[70] Yaxud da daşıdıqları mədəni xüsusiyyətləri başqa mədəniyyətdən olan insanlarla münasibət zamanı az və ya çox dərəcədə nümayiş etdirirlər.

Ritzer mədəniyyətin Yer kürəsinin hər tərəfində asanlıqla dövr etdiyini qeyd edir. Ancaq bu keyfiyyətin bütün mədəniyyətlərə şamil olmadığını vurğulayır. Misal üçün, dünyanın ən güclü millətlərinin (ABŞ xalqı timsalında) mədəni dəyərləri zəif xalqların mədəniyyətlərinə nisbətən daha sürətli yayılır.[71] Çünki bu xalqlar yüksək texnologiya dövrünün tələblərinə cavab verən iqtisadi, mədəni və sosial gücə sahibdirlər. Üçüncü dünya ölkələrinin xalqları inkişaf etmiş ölkələrdə yaşayan xalqların həyat tərzi, rifah səviyyəsi və dəyərlərinə həsəd aparırlar. Onlara bənzəməyə çalışırlar.

Qloballaşma modern dövrü başlatmış, rabitə və qarşılıqlı əlaqələrdə yeni cığır açmışdır. Keçmişdə iqtisadi, siyasi və mədəni münasibətlər daha çox insanmərkəzli idi. Bir xəbərin ölkənin bu başından digər başına yayılması üçün günlərlə vaxt lazım olurdu. Region və qitələr arasında əlaqə qurmaq isə olduqca çətin idi. Ancaq modernləşmə bu çətinlikləri aradan qaldırmışdır. Qloballaşma sürətləndikcə mədəni əlaqələrin sürəti də artmışdır. Bu prosesdə vahid mədəni birlik və hakimiyyətin olacağını müdafiə edənlər olsa da, mənfi təsirlər ortaya çıxmışdır.[72]

Bəzi alimlər qloballaşma prosesində mədəniyyətin getdikcə digər mədəniyyətlər içərisində əriyərək vahid dünya mədəniyyətinə (sivilizasiya) çevriləcəyi tezisini müdafiə edirlər. Hərbi, siyasi və texnoloji gücə istinad edən mədəniyyətin aradakı fərqləri qaldıracağına dair fikirlər irəli sürülmüşdür.[73] Ancaq bu proses müəyyən ölçüdə baş tutsa da, yerli (lokal) mədəniyyətlər öz mövcudluğunu qoruyub saxlamışdır. Belə ki, kiçik qrup

[70] Ritzer, s. 262

[71] Ritzer, s. 262

[72] Ətraflı məlumat üçün baxın: Tomlinson, s. 54-91

[73] Ətraflı məlumat üçün baxın: 1. Francis Fukuyama: Tarihin sonu mu?; 2. Samuel Huntington: Medeniyetler Çatışması;

və ya xalqların mədəniyyət daşıyıcıları daha böyük mədəniyyəti təmsil edən şəxslərlə əlaqə zamanı öz dəyərlərinə bağlılıq refleksi ortaya çıxır və onlar bu cür qoruna bilirlər. Kiçik qrup və xalqlar sahib olduqları mədəniyyəti yaymaq üçün texnoloji imkanlardan geniş şəkildə istifadə edirlər. Beləliklə, öz mədəni dəyərlərini, norma və adət-ənənələrini qoruyub saxlamağa çalışırlar. İnternet mühitində dünyanın başqa bir tərəfində yaşayan şəxslə asanlıqla əlaqə quran bir insan yeni mədəni dəyərlərlə tanış olmuş olur. Qarşılaşdığı fərqli mədəni komponentlərdən təsirlənsə də, bu proses onu öz mədəniyyətinə daha da bağlayır. Həmçinin qarşı tərəfin mədəniyyətinə tolerant davranmağı öyrənir. Nəticədə böyük sivilizasiya və tarixi epoxanı təmsil edən mədəniyyətlərin vahid kultroloji sistem yaradacağı fikri real görünmür.

## Kulturasiya və mədəni təmas

Tarixin bütün dövrlərində fərdi, sosial səviyyədə bir qarşılaşma, təmas və qarşılıqlı təsir həmişə olmuşdur. Mədəniyyət daşıyıcısı olan insan aid olduğu cəmiyyətin mədəni elementlərini getdiyi yerə də aparır. Fərd, cəmiyyət və rəqəmsal elementlər müstəvisində mədəni qarşılaşma və ya təmas qaçınılmazdır. Bir də yaşadığımız qlobal şərtləri nəzərə alsaq, bu proses olduqca asan şəkildə reallaşır.

***Kulturasiya*** (enculturation) fərdin üzvü olduğu cəmiyyətin mədəni elementlərini yaşayaraq mənimsəməsidir. Sosial elmlərdə mövcud olan sosializasiya və kulturasiya fərdin cəmiyyətin tələblərinə uyğun şəkildə yetişdirilməsidir.[74] Sosializasiya cəmiyyətə uyğunlaşma prosesidir. Kulturasiya isə digər şərtləri də ehtiva etməkdədir. Kulturasiya təhsil məfhumundan geniş

---

[74] Bozkurt Güvenç, **İnsan ve Toplum**, 6. Baskı, İstanbul: Remzi Kitapevi, 1994, s. 122

məna ifadə edir. Çünki təhsil kulturasiyanın şüurlu, məqsədli və istənilən şərtlərini mənalandırır. Ancaq kulturasiya şüursuz və ya şüurlu, ümumi, öz-özünə, təsadüfi, fərdi təlim və şərtlənmələrdir. Kulturasiya geniş mənada təhsil və təlimdir.[75]

Anton Ziyderveld körpənin böyümə prosesində əhatəsində baş verənləri hiss edərək öyrənməsi və vaxt keçdikcə ata-ananın (yaxud bacı-qardaş) əlaqələr dünyasına qoşulmasını kulturasiyaya misal olaraq göstərir. Böyüdükcə körpənin qoşulduğu əlaqə dünyası daha da genişlənir və sosial rolu formalaşır. Onun ilk örnək aldığı rol yenə yaxın münasibətdə olduğu ata-anası olur. Kiçik yaşlarında olan uşaqlar çox vaxt ata-ana, poçtalyon, sürücü, pilot və həkim rollarını oynayırlar. Uşaqlar bu cür oyunlarla böyüklərin dünyasını və onların davranışlarını təcrübədən keçirirlər. Bu oyunlar sosial-psixoloji cəhətdən çox əhəmiyyətlidir. Çünki uşaqlar bu oyunlar vasitəsilə kimlik və şəxsiyyətlərini formalaşdırırlar.[76]

***Akkulturasiya (acculturation)*** başqa mədəniyyətdən olan fərd və qrupların müəyyən bir təmas və qarşılıqlı münasibət nəticəsində dəyişməsidir. Akkulturasiya iki və ya daha çox mədəniyyət daşıyıcısının (qrup və ya toplum) davamlı əlaqə və qarşılıqlı münasibəti zamanı qruplardan birinin digərinin mədəni dəyərlərini qəbul etməsi və mənimsəməsi nəticəsində ortaya çıxan mədəniyyət kompozisiyasıdır. Akkulturasiyada iki və ya daha çox tərəfin olması şərt deyil, qarşılıqlı münasibətin davamlılığı vacibdir. Müəyyən bir səviyyəyə çatana qədər bu proses davam edir. Bir tərəfin mədəniyyətinin üstün olmasına baxmayaraq, hər iki tərəfin bu münasibətdən təsirlənməsi və dəyişməsi akkulturasiyanın əsas müddəasıdır. Bu prosesdə insanlarla yanaşı, mədəni element, vasitə və qurumlar da dəyişikliyə məruz qalır.[77]

---

75 Güvenç, **İnsan ve Toplum,** s. 125

76 Anton Zijderved, **Kültür Sosyolojisi: Kültür Sosyolojisine ve Metodolojisine Giriş,** *çev. Kadir Canatan*, İstanbul: Açılımkitap, 2013, s. 62-67

77 Güvenç, **İnsan ve Toplum**, s.122-127

Akkulturasiyanın başqa bir şərti isə diffuziyadır. İki ayrı mədəniyyət sistemi birbaşa əlaqəyə girmədən diffuziya yolu ilə bir-birinə təsir edə bilər.[78] Mədəni qarşılaşma və əlaqə daha çox miqrasiya sahəsində qarşımıza çıxmaqdadır. Mədəniyyət daşıyıcısı olan insan miqrasiya etdiyi cəmiyyətin içərisində yaşadıqca o cəmiyyətin mədəniyyətini öyrənərək ona uyğunlaşmağa çalışır. Ona görə də akkulturasiyada miqrasiya və inteqrasiya prosesi olduqca əhəmiyyətlidir. Çünki burada akkulturasiya yerli mədəniyyətin müəyyən elementlərinə adaptasiya olmaqdır.[79] Qeyd etmək lazımdır ki, akkulturasiyanı yerli cəmiyyətin mədəniyyətinə adaptasiya kimi qəbul etmək bəzi nəzəri problemlərə səbəb olur. Çünki akkulturasiya adaptasiya kimi izah olunanda qarşılıqlı təsir yox, təktərəfli təsir altında qalmaq mənasına gəlir. Burada müzakirə mövzusu miqrantın öz mədəni dəyərlərini yaşadığı ölkəyə aid mədəniyyət əsasında yenidən nəzərdən keçirməsidir. Akkulturasiya zamanı fərd və ya qrup yerli cəmiyyətin mədəniyyət elementlərini mənimsəyir. Lakin daşıdığı əsas mədəniyyət dəyərlərindən tamamilə qopması qeyri-mümkündür.

Başqa bir yanaşmaya görə, akkulturasiya iki və ya daha çox qrupun təması nəticəsində yaranan dəyişmə prosesidir. Fərd səviyyəsində yaşanan akkulturasiya prosesində yeni bir yer, ev kimi fiziki, yeni xəstəlik, qidalanma kimi bioloji, aidiyyət, kimlik kimi sosioloji, yeni iş yeri, həyat səviyyəsi kimi iqtisadi və psixoloji dəyişikliklər baş verir. Qrup səviyyəsində akkulturasiya prosesi isə sosial bünövrə, qurum və mədəni təcrübələrdə yaranan dəyişiklikləri ehtiva edir.[80]

---

[78] Güvenç, **İnsan ve Toplum,** s. 127

[79] Ali Çağlar, **Türkiye'de Sığınmacılar: Sorunlar, Beklentiler ve Sosyal Uyum**, Ankara: Hacettepe Üniversitesi Yayınları, 2011, s. 64-65

[80] B. Dilara Şeker, "Göç ve Uyum Süreci: Soso-Psikolojik Bir Değerlendirme", B. Dilara Şeker, İbrahim Sirkeci ve Murat Yüceşahin (Ed), **Göç ve Uyum** içinde (11-26), London: Transnational Press London, 2015, s. 13-14

Akkulturasiya nəzəriyyələri fərdin (miqrantın) təcrübələrini tədqiq edir. Ən optimal akkulturasiya nəzəriyyəsinin banisi Berriyə görə, miqrantların yeni məskunlaşdıqları yerdə öz mədəniyyətlərini qoruyub saxlamaq istəkləri yerli xalqla ünsiyyətləri əsasında dəyərləndirilir.

Miqrantın öz mədəni kimliyini qoruması bütünləşmə, yerli xalqın mədəniyyətini mənimsəməsi assimilyasiya, yerli xalqla münasibət qurmaqdan qaçması marijinallaşmadır.[81]

Akkulturasiya prosesi yalnız miqrant praktikaları ilə əlaqəli deyildir. Çünki iki qrupun qarşılıqlı əlaqəsi nəticəsində dəyişiklik baş verməkdədir. Boriş və həmkarları Berrinin akkulturasiya modeli əsasında "İnteraktiv akkulturasiya modeli"ni təqdim etmişdir. Bu model mədəni davamlılıq və əlaqə məfhumlarına üstünlük verir.

Qapalı mədəniyyətlər öz fərdlərinin və digər vasitələrin (kitab, film və s.) sayəsində başqa mədəniyyətlərlə əlaqəyə girmiş olur. Bu prosesə mədəni ünsiyyət, mədəniyyətlərarası əlaqə və ya akkulturasiya adı veririk. Mədəniyyətlərarası əlaqə "fərqli mədəniyyətlərdən olan fərdlərin əlaqəsi" kimi qəbul olunur və şəxslər arasındakı əlaqədən fərqlənir. Şəxslərarası əlaqə eyni mədəniyyəti təmsil edənlər arasındakı əlaqədir, mədəniyyətlərarası əlaqə isə fərqli mədəniyyətlərdən olan fərdlər arasındakı əlaqəni ifadə edir. Mədəniyyətlərarası əlaqə qloballaşma və miqrasiya prosesi ilə birlikdə doğru münasibətlərin qurulmasını təmin edir.[82]

Beynəlxalq miqrasiya fərqli mədəniyyətlərdən olan insanlar arasında informasiya (mədəni dəyərlər) mübadiləsinin baş tutmasında əhəmiyyətli rol oynayır. Beynəlxalq miqrasiya iqtisadi, mədəni, siyasi və sosial əlaqəni təmin edir. Qloballaşma mədəniyyətlərin bir-birinə bənzəməsinə səbəb olur və ictimai reflekslərlə xüsusi (yerli mədəniyyət) mədəni dəyərlərin qorun-

[81] John W. Berry, "İmmigration, Acculturation and Adaptation", **Applied Psychology: An İnternational Review**, sy. 46(1), 1997, s. 9-12

[82] Şahsenem Pınar, "Kültürlerarası İletişim ve Göç olgusu", Seda Özsoy (Ed), **Kültürlerarası İletişim Öğrenci Sempozyumu Bildiriler Kitabı** içinde (70-103), Gümüşhane: Gümüşhane Üniversitesi Yayınları, 2016, s. 74

ması, sonrakı nəsilə ötürülməsi və ön plana çıxarılması kimi məsələlərə yol açır. Buna görə də fərdlərin miqrasiya prosesinə qoşulmamışdan əvvəl fərqli mədəniyyətlərə uyğunlaşmaqla bağlı məlumat almaları tövsiyə olunur.[83]

## Assimilyasiya

Marşall assimilyasiyanı "xaricdən gələn şəxsin, miqrantın və ya ikinci dərəcəli (tabe) qrupun hakim cəmiyyətlə hiss edilməyəcək şəkildə birləşməsi (qaynaşma) prosesi" adlandırır və akkulturasiya ilə eyniləşdirir.[84] Assimilyasiya hakim xalqın sahib olduğu mədəniyyəti azlıqda qalan xalq, etnik qrup və ya miqrantlara zorla qəbul etdirərək onların sahib olduğu dəyərləri yox etməsidir. Bura miqrant və ya milli azlıqların yerli xalq içərisində öz dillərini, aidiyyətlərini və mədəni dəyərlərini unudaraq qarşı tərəfin mədəniyyətini mənimsəməsi, yerli xalqın nümayəndələri kimi düşünməsi və danışması da aiddir. Assimilyasiyaya məruz qalanlar aid olduqları mühitlə əlaqələrini kəsir, içərisində əridikləri xalqın nümayəndələri ilə dostluq edir və onlarla evlənirlər. [85]

Assimilyasiya ABŞ kimi ölkələrdə nəzəri və praktiki əhəmiyyətə malikdir. Çünki ABŞ miqrantların qurduğu bir ölkədir.[86]

İlk dövrlərdə assimilyasiya ilə bağlı iki klassik nəzəriyyə diqqət çəkmişdir. Bu nəzəriyyələr "İngilisliyə uyğunluq" (anglo-conformity) və "Əritmə qabı"dır (melting pot).[87]

"İngilisliyə uyğunluq" nəzəriyyəsində əsas ünsür Amerikaya gələn xaricilərin ingilis dilini, oranın siyasi sistemini və həyat tərzini öyrənmələridir. Burada əsas məqsəd Amerikada İngilis mədəniyyətini yaymaqdır. Ölkəyə gələn miqrantların öz mədə-

---

[83] Pınar, s. 88-89

[84] Marshall, s. 42

[85] Özkul, s. 96

[86] Yalçın, s. 56

[87] Bu nəzəriyyələrlə bağlı əlavə məlumat üçün baxın: Milton M. Gordon, **Assimilation in American Life: The Role of Race, Religion, and National Origins,** New York: Oxford University Press, 1964, s.84 vd.

niyyətlərini bir kənara qoyub yerli xalqın mədəni dəyərlərini mənimsəyərək özlərini ona uyğunlaşdırmaları assimilyasiya siyasətinin əsas hədəfidir. Bu siyasət birinci dünya müharibəsi və "100% amerikalı" hərəkatı ilə başlamışdır.[88]

"Əritmə qabı"nın digər nəzəriyyədən fərqi miqrantların mədəni fərqlərinin əridilərək yox edilməsidir. Bu nəzəriyyəyə görə, fərqli mədəniyyətlərdən olan insanların yerli xalqın nümayəndələri ilə evlilikləri çoxalarsa, miqrantlar bu xalqın mədəniyyətinə sahib olacaqlar. Nəticədə vətəndaşlıq çərçivəsində assimilyasiya baş tutacaq və qarşıdurmalara zəmin yaranmayacaq.[89]

Milli dövlətlərlə başlayan assimilyasiya 1960-cı illərə qədər geniş vüsət almışdır. Çikaqo məktəbi bu sahədə yeni fikir və mülahizələrlə çıxış etmişdir. Assimilyasiya prosesinin lehinə və əleyhinə çox sayda fikir formalaşmışdır. Misal üçün, Parex Kımlika miqrantları milli deyil, etnik azlıq kimi dəyərləndirmiş və daha yaxşı həyat tərzi üçün miqrasiya etdiklərinə görə yeni cəmiyyətə uyğunlaşmalarının onların mənfəətinə uyğun olacağını ifadə etmişdir. Kımlika miqrantların öz ölkələrindən köçməklə mədəni dəyərlərini qoruyub saxlamaq hüququndan könüllü imtina etdiklərini və bu haqqı tələb etməkdən çəkindiklərini irəli sürmüşdür. Assimilyasiya nəzəriyyələri 1960-cı illərdən etibarən tənqidlərə məruz qalmış, anti-demokratik hesab olunmuş və onun yerinə yeni nəzəriyyələr yaranmışdır.[90]

## Sosial-mədəni inteqrasiya

Assimilyasiya nəzəriyyələri gözlənilən nəticəni doğrultmamışdır və assimilyasiyanın bütöv şəkildə reallaşmasının qeyri-mümkünlüyü dərk edilmişdir. 1950-ci illərdən etibarən xarici vətəndaşların inteqrasiyası ilə bağlı nəzəriyyələr irəli sürül-

[88] Yalçın, s. 57

[89] Yalçın, s. 58

[90] Ali Çağlar ve Abdulkadir Onay, "Entegrasyon/uyum: Kavramsal ve Yapısal Bir Analiz", B. Dilara Şeker, İbrahim Sirkeci ve M. Murat Yüceşahin (Ed), **Göç ve Uyum** içinde (39-76), London: Transnational Press London, 2015, s. 50-55

müşdür. İnteqrasiya bir şeyi bütöv formalaşdırmaq məqsədilə başqa bir şeylə birləşdirməkdir. Sosiologiyada ictimai ünsürlərin müəyyən bir bütövlük içərisində birləşməsi nəzərdə tutulur. Məfhum kimi daha çox müxtəlifliyi ehtiva edir, yəni yalnız bir toplumun başqa bir topluma uyğunlaşması nəzərdə tutulmur.

İnteqrasiya məfhumu miqrasiya prosesinə paralel olaraq gündəmə gəlmişdir. Miqrantlar üçün inteqrasiya deyildiyi zaman məskunlaşdıqları ölkənin müəyyən edilmiş bütünləşdirmə siyasəti ilə birlikdə ölkənin bütün qurumlarına uyğunlaşmaq nəzərdə tutulur.[91] İnteqrasiya ilə bağlı fikir birliyi yoxdur.[92] Açıq və dəqiq olduğu düşünülsə də, qeyri-müəyyəndir. Toplumu homogen bir struktur kimi qəbul etməsi və yeni gələn miqrantlara *özgə* kimi yanaşması onu milli dövlətlərin kimliklə bağlı yanaşmasında istifadə olunan vasitəçi vəziyyətinə sala bilər. Digər bir nəzəri problem isə inteqrasiyanın milli dövlət və xalqları ayrı strukturlar kimi təqdim etməsidir. Miqrant inteqrasiyası obyektiv və emprik məfhum deyil, mənası və əldə olunma yolları tez-tez dəyişən və siyasi xarakter daşıyan ictimai proyekt və siyasi baxışdır.[93] Uğurlu inteqrasiya ilə bağlı fikir birliyi yoxdur. Fikir birliyinin olmaması isə bu sahədə bir çox cərəyanların ortaya çıxmasına səbəb olmuşdur. Qaçqın statusunda olanların ictimai xidmətlərdən istifadəsinin mümkün olması, sosial sərmayənin inkişafı, inteqrasiya düşüncəsinin qarşılıqlı bir proses kimi çoxtərəfli və real məfhum kimi qəbul edilməsi ortaq fikrin yaranmasına səbəb olmuşdur.[94]

Miqrantların inteqrasiyası liberal demokratiya siyasətini çətin vəziyyətə salan əsas mövzulardan biridir. Avropada miq-

---

[91] Çağlar və Onay, s. 55

[92] Çağlar və Onay, s. 55-56

[93] Onur Unutulmaz, "Gündemdeki Kavram: "Göçmen Entegrasyonu"- Avrupa'daki Gelişimi ve Britanya Örneği", S. Gülfer Ihlamur Öner ve N. Aslı Şirin Öner (Ed), **Küreselleşme Çağında Göç; Kavramlar Tartışmalar** içinde (135-159), İstanbul: İletişim Yayıncılık, 2015, s. 144-145

[94] Güven Şeker, "Türkiye'de Kamu Yönetiminde Uyum Çalışmaları", B. Dilara Şeker, İbrahim Sirkeci ve M. Murat Yüceşahin (Ed), **Göç ve Uyum** içinde (77-100), London: Transnational Press London, 2015, s. 79

rant xalqlar arasında inteqrasiyanın uğursuz olması ilə bağlı siyasi ritorika buna əyani sübutdur. Bu uğursuzluq miqrantların sosial-iqtisadi vəziyyətləri və zorakılıq hadisələri ilə bağlıdır. Bəzi alimlər inteqrasiyanın yeni və alternativ strategiyasını sivil inteqrasiya adlandırırlar. Bu yanaşma dövlətlərin assimilyasiya, multikulturalizm və inteqrasiya siyasətlərini tərk etmələrinin zəruriliyini müdafiə edir. Yeni yanaşma olsa da, yerli topluma uğurlu uyğunlaşmanı nəzərdə tutan düşüncə tərzinin məhsuludur. Köçüləcək ölkə haqqında məlumat, dil biliyi, liberal və sosial dəyərlər kimi xüsusiyyətlərə yiyələnməklə bağlı fərdi təminatı əhatə edən inteqrasiya modelidir. Bu modelin sosial inteqrasiyanı nəzərdə tutduğunu söyləyənlər də vardır.[95] Bir çox ölkələr sağlam cəmiyyətin funksionallığını təmin etmək üçün yeni gələn miqrantlara inteqrasiya siyasətinin müəyyən səviyyələrinin tətbiqini zəruri hesab edir. Bu cür prosedurlar asanlaşdırma və imkanlar təqdim etməkdən təşviq və məcbur etməyə qədər dəyişə bilir. İnteqrasiyanın məqsədi bərabərlik və qaynaşma prosesində müvəffəq olmaqdır.[96]

Klassik assimilyasiya nəzəriyyələri kimi inteqrasiya nəzəriyyələri də inteqrasiyanın bir neçə nəsil sonra baş tutacağını və bu prosesin uzun çəkəcəyi fikrini irəli sürür. Bu düşüncə tərzinə görə, etnik azlıqlar yerlilərlə sosial münasibətlər quraraq yerli xalqın bir parçası olacaqlar. Hal-hazırda yaxşı iş sahibi olanlar, ali təhsillilər yerli xalqla daha çox əlaqədə olur və məskunlaşdıqları ölkənin sosial həyatına daha asan uyğunlaşırlar.[97]

Hartmurt Esser müasir dövrdə inteqrasiya nəzəriyyələrinin bir-birilərindən fərqli, ancaq bir-birilərinə bağlı olduğunu bildirir. Birincisi, miqrantların yerli xalqın ictimai strukturuna sosial inteqrasiyasıdır. İkincisi, ictimai müxtəliflik, sosial bərabərsizlik və sosial fərqlilik nəticəsində miqrantlar arasında müəyyən sosial strukturların ortaya çıxmasıdır. Üçüncüsü isə cəmiyyətin müəyyən sosial strukturlara bölünməsi və münaqişələr əsa-

---

[95] Köse, s. 19

[96] Çağlar ve Onay, s. 56

[97] Köse, s 18

sında yaranan ictimai birlikdir. Bu isə miqrantların köçdükləri ölkədəki iş həyatı, iqtisadi strukturdakı mövqeləri və hüquqi sistemə uyğunlaşmalarına diqqət etməsindən qaynaqlanır. Bu prosesdə mədəniyyətin akkulturasiyası və fərdin şəxsi kimliyi olduqca əhəmiyyətlidir.[98] İnteqrasiya nəzəriyyələri və siyasəti miqrantların məcburi şəkildə dəyişməsini nəzərdə tutmur. Çünki inteqrasiya milli azlıqların (miqrant qrupların) çoxluğa əlavə olunması və çoxluğun təyin etdiyi şərtlərlə razılaşmasıdır. Milli azlıqların seçim haqqı məhdudlaşdırılır. Seçimlərin xaricində qalanlar isə miqrant olmayacaq qədər çətin prosesdən keçirlər. Nəticədə inteqrasiya prosesi iyerarxik şəkildə həyata keçirilir. Sistem xaricində qalanlar isə vaxt keçdikcə marjinallaşırlar.[99]

Miqrant və milli azlıqların yerli, yaxud hakim topluma inteqrasiyasından bəhs edildiyində daha çox sosial, mədəni və idari inteqrasiya önə çıxır. Miqrasiya edəcək şəxslərin köçəcəkləri yerdəki xalqın dilini, mədəniyyət və tarixini müəyyən səviyyədə bilmələri ilkin şərt kimi irəli sürülür. Fərdin həyatı ictimai münasibətlərə əsaslanır. Münasibətlər isə mədəni dəyərlərə söykənir. Miqrantın yerli toplumun mədəniyyəti, dili və tarixi ilə bağlı məlumatı olmasa, sağlam münasibət qurması çox çətindir. Əks halda mədəni şok, içə qapanma və marijinallaşma kimi hallar ortaya çıxır.

Sosial-mədəni inteqrasiya gündəlik həyatın çətinlikləri ilə sıx şəkildə bağlıdır. Bura yeni mədəni mühitdə yaşayış müddəti, dil biliyi, dəyərlərdən uzaqlıq və hakim toplumla münasibətlərin səviyyəsi də daxildir. Fərdin içərisində yaşadığı problemlərə görə sosial-mədəni inteqrasiya vaxt keçdikcə dalğalanma göstərə bilər. Yeni cəmiyyətdə yaşamağa başlayan fərdin özünü tanıtması psixoloji problem və gərginliyi azaldır.[100]

---

[98] Hartmurt Esser, "Does the "New" Immigration Require a "New" Theory of Intergenerational Integration?", **The International Migration Review**, c. 38, sy. 3, 2004, s. 1129-1130

[99] Köse, s. 20-21

[100] Dilara Şeker, s. 21-22

İnteqrasiya prosesində hər iki tərəfin mədəni mübadilə, qarşılıqlı təsirlənmə və əlaqə yolu ilə bir-birilərinin sosial-mədəni mövcudiyyətinə zərər vermədən sintezə nail olması vacibdir.[101] Sosial-mədəni inteqrasiya təktərəfli şəkildə mümkün deyil. Qarşılıqlı təsir və dəyişmə prosesinə əsaslanır.

Akkulturasiya prosesində digər mədəniyyəti tanıma, dil biliyinin yetərliliyi, dəyər və normaların öyrənilməsi əhəmiyyətlidir. Aparılan müxtəlif tədqiqatlarda dil biliyi, əlaqə qurma bacarığı, mədəni yaxınlıq və sözügedən mədəniyyətdə yaşama prosesi kimi göstəricilərin sosial-mədəni inteqrasiyaya birbaşa təsir etdiyi və bütün bunların inteqrasiya problemlərini azaltdığı göstərilir.[102]

Avropa İttifaqı (Aİ) tərəfindən hazırlanmış "Siyasətçilər və icraçılar üçün əl kitabı"nda inteqrasiyanın əsas prinsipləri qeyd olunmuşdur. Burada inteqrasiyanın təktərəfli deyil, ittifaqa üzv ölkələrdə yaşayan bütün miqrant və vətəndaşların iştirakı nəticəsində reallaşması vurğulanır. Ev sahibi cəmiyyətlərin dili, tarixi, mədəniyyəti və idari strukturları ilə bağlı təməl məlumatlara sahib olmaq inteqrasiyanın zəruri şərtləridir. Miqrantların təhsil səviyyəsi, işlə təmin olunaraq məskunlaşması və ictimai həyatda iştirak edərək cəmiyyətə töhfə verməsi də vacibdir. Ölkə vətəndaşları və miqrantların qanun qarşısında bərabər hüquqlara sahib olması inteqrasiya üçün əhəmiyyətli hesab olunur. Müxtəlif mədəniyyət və dinlərin təcrübələri insan haqlarının himayəsinə alınır və qorunur. Ölkə vətəndaşları ilə miqrantlar arasında sıx əlaqələrin qurulması da inteqrasiya üçün vacibdir.[103]

Adyu Qriliyə görə, etnik müxtəlifliyin yox edilməsi mümkün deyil və mədəni inteqrasiyanı şərh edən bu proses altı mərhələdən ibarətdir. Qrilinin tədqiqatlarında bir neçə nəsil sonra miqrantların yerli cəmiyyətə inteqrasiya edəcəyi qeyd olunur. Həmin mərhələlər bunlardır:

---

[101] Göker, s. 140

[102] Dilara Şeker, s. 22

[103] EU, **Common Agenda for Integration Framework for the Integration of Third-Sayry Nationals in the European Union**, COM 2005, s.4-10

1. Mədəni şok adlandırılan bu mərhələdə miqrant fərd və qrupun bir ölkəyə köçdükdən sonra qarşılaşdığı çətinliklər və mədəni fərqlər üzə çıxır.

2. Miqrantların təşkilatlanma və kimlik şüurunu artırma cəhdi. Bu barədə miqrant yazarlar, məmurlar və qrup liderləri əhəmiyyətli rol oynayır. İşləyənlər yarı ixtisaslı və ixtisaslı işçi səviyyəsinə gəlir, məskunlaşdıqları ölkənin dilini öyrənir və uşaqları iki dildə danışırlar. Bu mərhələdə ziyalı elitası assimilyasiya təlaşına düşərək öz dil, din və mədəni dəyərlərini qorumaq üçün ciddi səy göstərir.

3. Elit təbəqənin assimilyasiyası adlandırılan mərhələdə müəyyən ziddiyyətlər ortaya çıxır. Bu mərhələnin əsas xüsusiyyəti qrup üzvlərinin orta təbəqə səviyyəsinə gəlmələridir. Bu mərəhələdən sonra partizanlıq dövrü başlayır.

4. Partizanlıq dövrü. Qrup üzvləri tamamilə orta sinifə keçirlər. Bəziləri isə üst sinifə keçməyə başlayır. Qrup güc və iqtidar əldə edir. Yaşadıqları şəhərin onlara aid olduğunu və idarəçilərin onlardan ibarət olması fikrini irəli sürürlər. Bu tip partizan düşüncələr etnik qarşıdurmalara səbəb olur.

5. Özünənifrət və anti-partizan mərhələsi. Burada qrup üzvləri orta təbəqənin üst səviyyəsinə yüksəlirlər. Ali təhsilli, ixtisaslı peşə sahibləri çoxalır. Bu mərhələdə elit təbəqənin sayı çoxaldığı üçün qrupa qarşı yadlaşma prosesi başlayır. Onlar əvvəlki partizan davranışlara görə utanmağa başlayırlar. Modernləşmənin vacibliyi düşüncəsi hakim olmağa başlayır.

6. İnteqrasiyanın başlaması etnik qrup içərisində yeni nəslin yaranmasına səbəb olur. Yeni nəsil valideynlərinin gəldiyi ölkəni ziyarət etmək istəmir. Bəzən onların keçmişdə yaşadıqlarını anlamaq üçün valideynlərinin vətəninə səyahət edirlər. Burada etnik kimlik şüuru yox olur və onların yaşadıqları toplumla yaxşı səviyyədə qaynayıb qarışdıqları düşünülür.[104]

[104] Andew Greeley, Why Can't They be Like Us?: America's White Ethnic Groups, Clarke, İrwin and Company Usa, 1971, s. 53-58

Qrilinin bu nəzəriyyəsi bir çox alim tərəfindən tənqid olunmuşdur. Çünki mədəni şok prosesində fərd və qrupların həyat tərzinin təsviri natamam hesab olunur. Çünki miqrant qrup və etnik azlığın yaşadığı mədəniyyət şokunu yerli toplum da yaşaya bilər.[105]

## Azərbaycanlı tələbələrin təhsil üçün Türkiyəni seçmə səbəbləri və bu seçimdə dinin rolu

Türkiyə türk-müsəlman ölkələri içərisində müstəmləkə olmayan (yəni bu prosesi yaşamayan – red.) yeganə dövlətdir. Osmanlı dövlətinin varisi Türkiyə Respublikası periferiya nöqteyi-nəzərindən mərkəzdə dayanır.

Birinci dünya müharibəsindən sonra varlığına son qoyulan Osmanlı İmperiyasının itirdiyi torpaqlardan onun ərazisində qurulan və Anadolu torpaqlarına sıxışdırılan Türkiyə Respublikasına miqrasiya prosesi başlamışdır. Türkiyə xələfi olduğu dövlətin idarə etdiyi xalqlarla sosial-mədəni əlaqələri kəsmiş və miqrasiyadan homogen toplum yaratmaq üçün istifadə etmişdir. Müasir Türkiyə Respublikası özünü Osmanlı dövlətinin varisi hesab edir. Osmanlı dövləti XVI əsrin ilk rübündən XX əsrin əvvəllərinə qədər müsəlman dünyasına xəlifəlik etmişdir. Birinci dünya müharibəsindən sonra Anadolunun qalib ölkələr arasında bölünərək işğal edilməsi müsəlman dünyasında xilafətin sonu demək idi. Xilafətin dağıldığı ərəfələrdə müsəlmanlar onun davam etməsi üçün Osmanlıya yardım edirdilər. Respublikanın qurulmasından sonra isə qeyri-müsəlman rejimlərin idarəçiliyinə keçən torpaqlarda yaşayan müsəlmanlar öz ana yurdlarını tərk edərək islami həyat tərzlərini davam etdirmək üçün yenə Osmanlının mərkəzinə - onun varisi olan Türkiyə Cumhuriyyətinə üz tutmuşlar. Sonrakı onilliklərdə də müəyyən aralıqlarla Türkiyəyə mərkəz-periferiya müstəvisində miqrasiya axınları olmuşdur.

[105] Yalçın, s. 66

SSRİ-nin dağılması və Soyuq müharibənin bitməsindən sonra milli dövlətlərin qurulması və etnik qarşıdurmaların yaranması yeni miqrasiya axınını başlatmışdır. Balkanlarda baş verən müharibələr və Bolqarıstanda milliyyətçiliyin geniş vüsət alması bu bölgələrdən Türkiyəyə milli müstəvidə köçlərin başlamasına səbəb olmuşdur.

SSRİ dağıldıqdan sonra yaranan Müstəqil Türk Dövlətləri ilə Türkiyə arasında münasibətlər qurulmuş və əlaqələr inkişaf etdirilmişdir. Digər türk dövlətlərindən fərqli olaraq həm Türkiyə ilə həmsərhəd olduğuna, həm də Türkiyənin Qars, Iğdır, Van bölgələrində xeyli sayda Azərbaycan türkü məskunlaşdığına görə Azərbaycan və Türkiyə arasında münasibətlər daha sıx olmuş və sürətlə inkişaf etmişdir. Təbii ki, soy-kök eyniliyi də əsas faktorlardan biridir. Türkiyəyə miqrasiya axınının əsas hissəsini isə tələbə miqrasiyası təşkil etmişdir. 1992-ci ildə iqtidarda olan Əbülfəz Elçibəy Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət vermiş, onun göstərişi ilə Türkiyəyə dövlət tərəfindən 929 nəfər tələbə göndərilmişdir. Beləliklə, dövlət səviyyəsində Azərbaycandan Türkiyəyə təhsil üçün edilən ilk rəsmi miqrasiya gerçəkləşmişdir. İki yüz nəfər tələbə isə hərbi təhsil üçün göndərilmişdir.[106] Bundan başqa, 1992-ci ildə Türkiyə Dəyanət Vəqfinin (TDV) himayəsi ilə Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi yaradılmışdır. Fakültənin tələbələri birinci kursu Türkiyədə oxumuşdur. Bakı Dövlət Üniversiteti İlahiyyat məzunları magistr və doktorantura təhsili almaq üçün Türkiyəyə miqrasiya etmişdir. Qeyd etmək lazımdır ki, tələbələrin dünyanın qabaqcıl ölkələrində təhsil almaları və ölkəyə qayıdaraq xidmət etmələri dövlət tərəfindən dəstəklənmişdir. 2007-ci ildə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" elan olunmuşdur.[107]

---

[106] Nazim Cafersoy, **Elçibey Dönemi Azerbaycan Dış politikası**, Ankara: ASAM Yayınları, 2001, s. 124

[107] https://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet-proqrami.pdf (24. 06. 2019)

## Türkiyənin beynəlxalq tələbə miqrasiyası siyasəti

Türkiyə 1993-cü ilə kimi tələbə miqrasiyası ilə bağlı konkret bir addım atmamışdır. Soyuq müharibənin bitməsi ilə Türkiyə yenidən cazibə mərkəzinə çevrilmişdir (Balkan və keçmiş sovet ölkələri üçün). Türkiyə təhsillə bağlı layihələr həyata keçirməyə başlamışdır. Büyük Öğrenci Projesi (Böyük Tələbə Layihəsi) Türkiyənin xaricdəki ən əhəmiyyətli layihələrindən biridir.[108] Təhsil sahəsində imzalanan ikitərəfli müqavilələrlə müstəqillik əldə edən türkdilli respublikalarla tələbə mübadiləsi aparılmışdır. Türkiyə bu ölkələrlə olan tarixi və mədəni əlaqələrini gücləndirmişdir. Böyük Tələbə Layihəsi də əlaqələrin gücləndirilməsi nəticəsində ortaya çıxmışdır. Türkiyəyə gələn beynəlxalq tələbə sayı ciddi şəkildə artmışdır. Türkdilli ölkələrdən gələn tələbələr Türkiyədə təqaüdlü təhsil alan bütün xarici tələbələrin 25 faizini təşkil etmişdir.[109]

2000-ci illərdən etibarən Türkiyədə yaranan siyasi sabitlik və iqtisadiyyatın canlanması ölkəni regionun cazibə mərkəzinə çevirmişdir. Universitetlərə giriş imtahanı ləğv olunmuş (17 Mart 2010) və Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı (YTB) yaradılmışdır (24 may 2010). YTB ilk addım kimi bütün təqaüd proqramlarını “Türkiye Bursları” (Türkiyə Təqaüdləri) adı altında birləşdirərək ölkəyə qabiliyyətli tələbələri cəlb etməyə başlamışdır.

Son illərdə Türkiyədə beynəlxalq tələbələrin sayı artmışdır. Türkiyənin beynəlxalq arenada nüfuzunun artması, transmilliləşməyə verilən əhəmiyyət, İqtisadiyyat Nazirliyinin Türkiyə universitetlərinin təbliği üçün verdiyi dəstək və “Türkiye Bursları” layihəsinin həyata keçirilməsi bu prosesi sürətləndirmişdir.[110]

---

[108] Gözübüyük Tamer, s.86

[109] Murat Özoğlu, Bekir S. Gür ve İpek Coşkun, **Küresel Eğilimler Işığında Türkiye’de Uluslararası Öğrenciler**, Ankara: SETA Yayınları, 2012, s.58

[110] T. C. Kalkınma Bakanlığı, “Yükseköğretimin Uluslararasılaşması çerçeve-

**Qrafik 1:** Türkiyədə təhsil alan beynəlxalq tələbələrin illərə görə sayı




**Mənbə:** "Kalkınma Bakanlığının Uluslararası Öğrenci Raporu (2015) ve YÖK" statistikasından istifadə olunaraq hazırlanmışdır.

Türkiyənin Orta Asiya, Qafqaz, Afrika və Yaxın Şərq ölkələrindən gələn beynəlxalq tələbələr üçün cazibə mərkəzinə çevrilməsində siyasi, iqtisadi və mədəni faktorlar böyük rol oynayır. Türkdilli ölkələrlə olan mədəniyyət və dil yaxınlığı (ortaqlığı) bu prosesi sürətləndirir. Bununla bərabər, dövlət və qeyri-hökumət təşkilatları (vəqflər və dərnəklər) tərəfindən verilən təqaüd və təhsil xərclərinin az olması tələbələr üçün cəlbedici səbəblərdən hesab olunur. 2017-2018-ci illərin statistikası göstərir ki, 2011-ci ildən etibarən Türkiyədə beynəlxalq tələbə sayı iki dəfədən çox artaraq 125 min olmuşdur. Azərbaycanlı tələbələr isə 15546 nəfərlə birinci yerdədir.[111]

## Anket sorğusunun analizi

Mövzumuzla bağlı Türkiyədə təhsil alan tələbələr arasında anket sorğusu keçirdik. Tələbələrin təxminən 10 faizini nəzərdə tutaraq 150 tələbənin anket sorğusunda iştirak etməsinə nail olduq. Anket 4 hissədən ibarətdir:

sinde Türk üniversitelerinin Uluslararası Öğrenciler İçin Çekim Merkezi Haline Getirilmesi", **Araştırma Projesi Raporu**, Ankara: Kalkınma Araştırmaları Merkezi, 2015, s. 27

[111] https://istatistik.yok.gov.tr/ (19.07. 2019)

1. Demoqrafik suallar.

2. Anket iştirakçılarının dini inanc və dindarlığının hansı səviyyədə olması məqsədilə hazırlanan suallar.

3. Türkiyə ilə bağlı düşüncələrinin və Türkiyəni seçmə səbəblərinin müəyyən edilməsi ilə bağlı suallar.

4. Türkiyədə yaşadıqları müddətdə dinlə bağlı düşüncələrinin dəyişib-dəyişməməsinə dair suallardır.

Anket iştirakçılarının 64,7%-i kişi, 35,3%-i isə qadındır. Anket sorğusu ali təhsil alan tələbələr arasında keçirilmişdir. İştirakçıların 30%-i bakalavr, 49,3%-i magistr və 20,7%-i isə doktorantura pilləsində təhsil alır.

Anket suallarını Azərbaycanda əhalinin 90 faizindən çoxunun müsəlman olduğunu nəzərdə tutaraq hazırlamışıq. Sorğu iştirakçılarının 80,7%-i inanclarınının İslam olduğunu, geri qalan 8%-i ateizm, 4,7%-i deizm, 3,3 %-i aqnostisizm kimi qeyd etmişdir.

**Qrafik 2:** Dini inanc




İştirakçıların inanclarının cinsiyyətə görə bölgüsü aşağıdakı tabloda göstərilmişdir.

**Tablo 2**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Cinsiyyətiniz** | Kişi | S | 79 | 7 | 4 | 4 | 3 | 97 |
| | | % | 65,3% | 58,3% | 57,1% | 80,0% | 60,0% | 64,7% |
| | Qadın | S | 42 | 5 | 3 | 1 | 2 | 53 |
| | | % | 34,7% | 41,7% | 42,9% | 20,0% | 40,0% | 35,3% |
| **Cəm** | | S | 121 | 12 | 7 | 5 | 5 | 150 |
| | | % | 100% | 100% | 100% | 100% | 100% | 100% |

Azərbaycan müstəqillik əldə etdikdən sonra dini dəyərlər inkişaf etməyə başlamışdır. Dini təhsil almaq istəyən Azərbaycan vətəndaşları İran, Səudiyyə Ərəbistanı, Misir və Türkiyə kimi ölkələrə miqrasiya etmişdir. Məzhəb və dini qrupla bağlı anket sualına verilən cavabların nəticələri Tablo 3-də verilmişdir.

**Tablo 3: Məzhəb**

| Məzhəb və dini qrup | Say | % | Etibar olunan % |
|---|---|---|---|
| Şiə | 39 | 26,0 | 26,0 |
| Sünni (Hənəfi) | 62 | 41,3 | 41,3 |
| Sünni (Şafei) | 9 | 6,0 | 6,0 |
| İnancsız | 12 | 8,0 | 8,0 |
| Digər | 28 | 18,7 | 18,7 |
| Cəm | 150 | 100,0 | 100,0 |

Anketdə iştirakçıların dini inancları, Türkiyəyə din nöqteyi-nəzərindən baxışları, yaşadıqları həyat tərzində dinin rolu və Türkiyəni seçmə səbəbləri ilə bağlı hazırlanmış suallara verdikləri cavabların etibarlılığını yoxlamaq üçün SPSS proqramının 21-ci versiyasında Cronbach alfa metodu istifadə edilmişdir. 25 anket sualının Cronbach alfa analizindəki nəticəsi 0,85-dir. Bu da anket suallarının etibarlılığının yüksək səviyyədə olması deməkdir.

- Cronbach alfa 00< $\alpha$ < 0,40 olduğu zaman etibarlı deyil.
- Cronbach alfa 0,41< $\alpha$ <0,60 olduğu zaman az etibarlıdır.

- Cronbach alfa $0,61<\alpha<0,80$ olduğu zaman orta səviyyədə etibarlıdır.
- Cronbach alfa $0,81<\alpha<1,00$ olduğu zaman yüksək səviyyədə etibarlıdır.[112]

**Tablo 4: Etibarlılıq testi**

| | Mean | Std. Deviation | Corrected Item-Cəm Correlation | Cronbach's Alpha if Item Deleted |
|---|---|---|---|---|
| Dini inancıma bağlıyam | 2,90 | 1,32 | ,627 | ,840 |
| Dini inancımla qürur duyuram | 2,60 | 1,36 | ,636 | ,840 |
| Həyatımı dini inancıma görə yaşayıram | 3,16 | 1,31 | ,528 | ,844 |
| Gündəlik ibadətlərimi mütəmadi şəkildə edirəm | 3,36 | 1,34 | ,460 | ,846 |
| Dini inanc ailəm üçün çox əhəmiyyətlidir | 2,81 | 1,25 | ,579 | ,842 |
| Ailəm dini həyat tərzinə çox əhəmiyyət verir | 2,99 | 1,23 | ,576 | ,842 |
| Ailəmdə heç kim dini inancına görə təzyiq görmür | 2,28 | 1,31 | ,499 | ,845 |
| Ailəm dini ibadətləri əhəmiyyətli hesab edir | 2,90 | 1,21 | ,586 | ,842 |
| Ailəm inanc və dini həyat tərzini bir-birindən ayrı tutur | 2,72 | 1,25 | ,210 | ,855 |
| Azərbaycan xalqı inanclıdır | 3,18 | 1,03 | ,468 | ,847 |
| Azərbaycan xalqı dinə və dindar həyat tərzinə hörmətlə yanaşır | 2,79 | 1,13 | ,461 | ,847 |
| Dindar insanlar cəmiyyətdə hörmətlə qarşılanır | 3,07 | 1,08 | ,506 | ,845 |
| Azərbaycanda kifayət qədər ibadət yerləri (məscid, kilsə, sinaqoq və s.) var | 3,56 | 1,26 | ,074 | ,859 |
| Heç kim dini həyat tərzinə görə ictimai təzyiqlə qarşılaşmır | 3,22 | 1,24 | ,352 | ,850 |
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Təqaüd imkanları olduğu üçün | 3,16 | 1,28 | -,012 | ,862 |

[112] Metin Yaşar, İstatistiğe Yönelik Tutum Ölçeği: Geçerlilik ve Güvenirlik Çalışması, Pamukkale Üniversitesi Eğitim Fakültesi Dergisi, Sayı 36 (Temmuz 2014/II), s. 59-75

| | | | | |
|---|---|---|---|---|
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Eyni mədəniyyət və dinə sahib olduğumuz üçün | 2,52 | 1,21 | ,362 | ,850 |
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Dini kimliyimə görə | 3,50 | 1,28 | ,260 | ,853 |
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Rifah səviyyəsi yüksək olduğu üçün | 2,96 | 1,09 | ,374 | ,849 |
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Öz ölkəmə yaxın olduğu üçün | 2,38 | 1,11 | ,273 | ,852 |
| Təhsil üçün Türkiyəni niyə seçdiniz: Öz ölkəmlə müqayisədə təhsil xərcləri az olduğu üçün | 2,96 | 1,32 | ,324 | ,851 |
| Türkiyə xalqı inanclı xalqdır | 2,17 | 1,03 | ,339 | ,850 |
| Türkiyə xalqı dinə və dindar həyat tərzinə hörmətlə yanaşır | 2,36 | 1,03 | ,450 | ,847 |
| Dini inanc və dindar həyat tərzi üçün Türkiyədə yaxşı mühit var | 2,24 | 1,07 | ,407 | ,848 |
| Türkiyədə kifayət qədər ibadət yerləri (məscid, kilsə, sinaqoq və s.) var | 1,86 | 1,10 | ,310 | ,851 |
| Heç kim dini həyat tərzinə görə ictimai təzyiqlə qarşılaşmır | 2,80 | 1,34 | ,443 | ,847 |

*"İnanc və gündəlik həyat tərzində dinin rolu"* ilə bağlı anketin nəticələri tablo 5-də göstərilmişdir. Anketdə iştirak edənlərin 18%-i inanclarına *çox bağlı*, 24,7%-i isə inanclarına bağlıdır. 19,3% *qərarsızdır*. R*azılaşmayanlar* 24,7, *qətiyyən razılaşmayanlar* isə 13,3 faizdir.

*"İnancımla qürur duyuram"* sorğusu ilə *tamamilə razılaşanlar* 25,3%, *razılaşanlar* 30,7%, *qərarsız* olanlar 15,3%, *sosial-mədəni kimliyi ilə qürur duymayanlar, yəni bu məsələni fəxarət hissindən uzaq, məhrəm hadisə kimi qiymətləndirənlər* isə 28,6%-dir.

*"Dini inancın gündəlik həyata təsirləri"* ilə bağlı anket sualında *"həyatımı dini inancıma görə yaşayıram"* ifadəsi ilə razılaşanlar 35,4, qərarsız olanlar 13,3 və dini inancın tələblərinə görə yaşamayanlar isə 51,4 faizdir.

Anketə görə, 33,3% gündəlik ibadətlərini mütəmadi şəkildə edir, 8% qərarsızdır, 58,7% gündəlik ibadətlərini mütəmadi olaraq yerinə yetirmir.

# Tablo 5

| | | Şiə | Sünni (Hənəfi) | Sünni (Şafei) | İnancsız | Digər | Cəm |
|---|---|---|---|---|---|---|---|
| **Dini inancıma bağlıyam** | | | | | | | |
| Dini inancıma bağlıyam | Tamamilə razıyam | 20,5% | 17,7% | 22,2% | 16,7% | 14,3% | 18,0% |
| | Razıyam | 33,3% | 27,4% | 22,2% | 0,0% | 17,9% | 24,7% |
| | Qərarsızam | 17,9% | 14,5% | 0,0% | 25,0% | 35,7% | 19,3% |
| | Razı deyiləm | 15,4% | 27,4% | 44,4% | 25,0% | 25,0% | 24,7% |
| | Qətiyyən razı deyiləm | 12,8% | 12,9% | 11,1% | 33,3% | 7,1% | 13,3% |
| **Cəm** | | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% |
| **Dini inancımla qürur duyuram** | | | | | | | |
| | Tamamilə razıyam | 30,8% | 25,8% | 22,2% | 16,7% | 21,4% | 25,3% |
| | Razıyam | 38,5% | 32,3% | 11,1% | 8,3% | 32,1% | 30,7% |
| | Qərarsızam | 10,3% | 12,9% | 22,2% | 25,0% | 21,4% | 15,3% |
| | Razı deyiləm | 10,3% | 12,9% | 33,3% | 16,7% | 21,4% | 15,3% |
| | Qətiyyən razı deyiləm | 10,3% | 16,1% | 11,1% | 33,3% | 3,6% | 13,3% |
| **Cəm** | | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% |
| **Həyatımı dini inancıma görə yaşayıram** | | | | | | | |
| Həyatımı dini inancıma görə yaşayıram | Tamamilə razıyam | 20,5% | 12,9% | 11,1% | 8,3% | 14,3% | 14,7% |
| | Razıyam | 25,6% | 22,6% | 11,1% | 8,3% | 17,9% | 20,7% |
| | Qərarsızam | 7,7% | 16,1% | 11,1% | 8,3% | 17,9% | 13,3% |
| | Razı deyiləm | 33,3% | 32,3% | 55,6% | 50,0% | 39,3% | 36,7% |
| | Qətiyyən razı deyiləm | 12,8% | 16,1% | 11,1% | 25,0% | 10,7% | 14,7% |
| **Cəm** | | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% |
| **Gündəlik ibadətlərimi mütəmadi şəkildə edirəm** | | | | | | | |
| Gündəlik ibadətlərimi mütəmadi şəkildə edirəm | Tamamilə razıyam | 15,4% | 12,9% | 11,1% | 8,3% | 3,6% | 11,3% |
| | Razıyam | 30,8% | 21,0% | 11,1% | 16,7% | 17,9% | 22,0% |
| | Qərarsızam | 5,1% | 3,2% | 11,1% | 0,0% | 25,0% | 8,0% |
| | Razı deyiləm | 28,2% | 40,3% | 55,6% | 33,3% | 35,7% | 36,7% |
| | Qətiyyən razı deyiləm | 20,5% | 22,6% | 11,1% | 41,7% | 17,9% | 22,0% |
| **Cəm** | | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% | 100,0% |

İştirakçıların yuxarıdakı anket sualına verdikləri cavabları məzhəb və dini qruplara görə böldükdə və çarpaz tabloya baxdıqda *"dini inancıma bağlıyam"* sorğusuna şiələrin 53,5, hənəfilərin 45,1 və şafeilərin 44,4 faizi *razıyam* (tamamilə razıyam) cavabını verdiklərini görmək mümkündür. *"Dini inancımla qürur duyuram"* ifadəsinə münasibət bildirən şiələrin 69,3, hənəfilərin 58,1, şafeilərin 33,3, ateistlərin 25, deist, aqnostik və məzhəb qəbul etməyənlərin (*digərləri*) 53,5 faizi dini inancları ilə *qürur duyduqlarını* qeyd etmişdir.

Anketdə iştirak edən şiələrin 46,1, hənəfilərin 35,5, şafeilərin isə 22,2 faizi *"həyatlarını dini inanclarına görə yaşayırlar"*. Şiələrin 46,2, hənəfilərin 33,9 və şafeilərin 22,2 faizi *gündəlik ibadətlərini yerinə yetirir*.

**Tablo 6**

| | | | Tamamilə razıyam | Razıyam | Qərarsızam | Razı deyiləm | Qətiyyən razı deyiləm | Cəm |
|---|---|---|---|---|---|---|---|---|
| **Dini inancıma bağlıyam** | | | | | | | | |
| Cinsiyyətiniz | Kişi | Say | 17 | 23 | 19 | 22 | 16 | 97 |
| | | % | 17,50% | 23,70% | 19,60% | 22,70% | 16,50% | 100,00% |
| | Qadın | Say | 10 | 14 | 10 | 15 | 4 | 53 |
| | | % | 18,90% | 26,40% | 18,90% | 28,30% | 7,50% | 100,00% |
| Cəm | | Say | 27 | 37 | 29 | 37 | 20 | 150 |
| | | % | 18,00% | 24,70% | 19,30% | 24,70% | 13,30% | 100,00% |
| **Dini inancımla qürur duyuram** | | | | | | | | |
| Cinsiyyətiniz | Kişi | Say | 28 | 27 | 13 | 13 | 16 | 97 |
| | | % | 28,90% | 27,80% | 13,40% | 13,40% | 16,50% | 100,00% |
| | Qadın | Say | 10 | 19 | 10 | 10 | 4 | 53 |
| | | % | 18,90% | 35,80% | 18,90% | 18,90% | 7,50% | 100,00% |
| Cəm | | Say | 38 | 46 | 23 | 23 | 20 | 150 |
| | | % | 25,30% | 30,70% | 15,30% | 15,30% | 13,30% | 100,00% |

| Həyatımı dini inancıma görə yaşayıram | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Cinsiyyətiniz | Kişi | Say | 14 | 20 | 14 | 33 | 16 | 97 |
| | | % | 14,40% | 20,60% | 14,40% | 34,00% | 16,50% | 100,00% |
| | Qadın | Say | 8 | 11 | 6 | 22 | 6 | 53 |
| | | % | 15,10% | 20,80% | 11,30% | 41,50% | 11,30% | 100,00% |
| Cəm | | Say | 22 | 31 | 20 | 55 | 22 | 150 |
| | | % | 14,70% | 20,70% | 13,30% | 36,70% | 14,70% | 100,00% |
| **Gündəlik ibadətlərimi mütəmadi şəkildə edirəm** | | | | | | | | |
| Cinsiyyətiniz | Kişi | Say | 12 | 19 | 7 | 34 | 25 | 97 |
| | | % | 12,40% | 19,60% | 7,20% | 35,10% | 25,80% | 100,00% |
| | Qadın | Say | 5 | 14 | 5 | 21 | 8 | 53 |
| | | % | 9,40% | 26,40% | 9,40% | 39,60% | 15,10% | 100,00% |
| Cəm | | Say | 17 | 33 | 12 | 55 | 33 | 150 |
| | | % | 11,30% | 22,00% | 8,00% | 36,70% | 22,00% | 100,00% |

*"Dini inancıma bağlıyam"* (Tablo 6) sorğusunda qadınların 18,90%-i *tamamilə razıyam,* 26,40 faizi isə *razıyam* cavabını vermişdir. Qadınlar kişilərdən (17,50% *tamamilə razıyam,* 23,70% *razıyam*) öndədirlər. *"Dini inancımla qürur duyuram"* sorğusunda isə kişilər (28,90% *tamamilə razıyam)* qadınları üstələyirlər. Ancaq kişilərə nisbətən qadınlar dini yaşam tərzinə və ibadətlərə daha çox əhəmiyyət verirlər.

*"Həyatımı dini inancıma görə yaşayıram"* sorğusuna qadınların 15,10%-i (kişilər 14,40%) *tamamilə razıyam,* 20,80 faizi (kişilər 20,6%) isə *razıyam* şəklində cavab vermişdir. Razılaşmayanlar bölgüsündə yenə qadınlar (41,50%) kişilərdən fərqlənirlər. Gündəlik ibadətlərdə isə qadınlar (*tamamilə razıyam* 9,40%, *razıyam* 26,40%) və kişilər (*tamamilə razıyam* 12,40%, *razıyam* 19,60%) arasında müəyyən fərqlər vardır.

Ailə və cəmiyyətdə dini inanc mövzusu xüsusi əhəmiyyətə malikdir. *"Ailəmdə heç kim dini inancına görə təzyiq görmür"* sorğusuna bildirilən münasibət diqqət çəkir. Çünki 30,7% iştirakçı *tamamilə razıdır.* Maraqlıdır ki, 74% şəxs ailədə tolerantlığı qəbul edir. Ailədə dini inancla gündəlik həyata təsiri olan ibadət və həyat tərzini bir-birindən ayıran şəxslər 56,7 faizdir (12,7%-i

*tamamilə razıdır*). Bundan başqa, ailənin dini inanca əhəmiyyət verməsi (*dini inanc ailəm üçün çox əhəmiyyətlidir*) 34,7% (14,7% faiz isə bu fikirlə *tamamilə razıdır*) olsa da, dini yaşantı bu göstəricidən aşağıdır.

Sorğuda cəmiyyətin 48 faizi (10%-i bu fikirlə *tamamilə razıdır*) inancla dini ibadətləri bir-birindən ayrı tutur. *"Azərbaycanda kifayət qədər dini ibadət yeri var"* sorğusu ilə razılaşmayanlar 58,6, razılaşanlar isə 26,6 faizdir. *"Heç kim dini həyat tərzinə görə ictimai təzyiqlə qarşılaşmır"* sorğusunda isə razılaşmayanların sayı (70 nəfər - 46,7%) razılaşanlardan (34%) çoxdur.

**Tablo 7**

| | Tamamilə razıyam | | Razıyam | | Qərarsızam | | Razı deyiləm | | Qətiyyən razı deyiləm | | Ortalama | Std. sapma |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | s | % | s | % | s | % | s | % | s | % | | |
| Dini inanc ailəm üçün çox əhəmiyyətlidir | 22 | **14,7** | 52 | **34,7** | 24 | **16** | 36 | **24** | 16 | **10,7** | 2,81 | 1,25 |
| Ailəm dini həyat tərzinə çox əhəmiyyət verir | 19 | **12,7** | 42 | **28** | 26 | **17,3** | 47 | **31,3** | 16 | **10,7** | 2,99 | 1,24 |
| Ailəmdə heç kim dini inancına görə təzyiq görmür | 46 | **30,7** | 65 | **43,3** | 6 | **4** | 16 | **10,7** | 17 | **11,3** | 2,29 | 1,31 |
| Ailəm dini ibadətləri əhəmiyyətli hesab edir | 17 | **11,3** | 51 | **34** | 26 | **17,3** | 41 | **27,3** | 15 | **10** | 2,91 | 1,21 |
| Ailəm inanc və dini həyat tərzini bir-birindən ayrı tutur | 19 | **12,7** | 66 | **44** | 25 | **16,7** | 18 | **12** | 22 | **14,7** | 2,72 | 1,25 |
| Azərbaycan xalqı inanclı xalqdır | 4 | **2,7** | 40 | **26,7** | 47 | **31,3** | 43 | **28,7** | 16 | **10,7** | 3,18 | 1,03 |
| Azərbaycan xalqı dinə və dindar həyat tərzinə hörmətlə yanaşır | 15 | **10** | 57 | **38** | 35 | **23,3** | 30 | **20** | 13 | **8,7** | 2,79 | 1,13 |
| Dindar insanlar ictimaiyyətdə hörmətlə qarşılanır | 8 | **5,3** | 42 | **28** | 48 | **32** | 35 | **23,3** | 17 | **11,3** | 3,07 | 1,08 |
| Azərbaycanda kifayət qədər ibadət yerləri (məscid, kilsə, sinaqoq və s.) var | 8 | **5,3** | 32 | **21,3** | 22 | **14,7** | 44 | **29,3** | 44 | **29,3** | 3,56 | 1,26 |
| Heç kim dini həyat tərzinə görə ictimai təzyiqlə qarşılaşmır | 12 | **8** | 39 | **26** | 29 | **19,3** | 43 | **28,7** | 27 | **18** | 3,23 | 1,24 |

Dini inancından ötrü təzyiqə məruz qalmaq məsələsində ailələr cəmiyyətdən kəskin şəkildə fərqlənir. Çünki ailədə təzyiqin olmaması fikri ilə razılaşanların faizi cəmiyyətlə müqayisədə iki dəfə çoxdur.

*"Cəmiyyətin dini həyat tərzinin fərdin həyatına təsiri"* ilə bağlı verilən anket sualında iştirakçıların 83,2 faizi cəmiyyətdəki dini həyat tərzinin fərdə *təsir etdiyini* düşünür. Geri qalan hissəsi isə bu fikirlə *razılaşmır*. *"Əgər dini həyat tərzinə bağlı olan cəmiyyətin fərdin həyatına təsir edəcəyini düşünürsünüzsə, sizcə bu təsir necə olar"* sualına isə iştirakçıların 51,6%-i "*mənfi*", 48,4%-i isə "*müsbət*" cavab vermişdir.

Türkiyədə təhsil alan tələbələrin buraya miqrasiya etməmişdən əvvəl ölkə ilə bağlı düşüncələrini öyrənmək məqsədilə hazırlanmış anketin cinsiyyət, din və məzhəbə görə bölgüsü

aşağıdakı tablolarda verilmişdir. *"Türkiyə xalqı inanclı xalqdır"* sorğusuna *tamamilə razıyam* cavabını verənlər arasında aqnostiklər (60%) və *qətiyyən razı deyiləm* deyənlər arasında isə ateistlər (16,7%) birincidir. Bu fikirlə 19% müsəlman *tamamilə razıdır (*59,5 faizi isə *razıdır)*. Cinsiyyət bölgüsündə isə 24,7% kişi, 17% qadın iştirakçı *tamamilə razıyam* (55,7% kişi, 60,4% qadın *razıyam)* şəklində cavab vermişdir.

**Tablo 8**

**Dini inancınızı qeyd edin. "Türkiyə xalqı inanclı xalqdır" Cinsiyyətiniz (çarpaz tablo)**

| Cinsiyyətiniz | | | | Tamamilə razıyam | Razıyam | Qərarsızam | Razı deyiləm | Qətiyyən razı deyiləm | Cəm |
|---|---|---|---|---|---|---|---|---|---|
| Kişi | İnanc | İslam | Say | 19 | 43 | 5 | 8 | 4 | 79 |
| | | | % | 24,10% | 54,40% | 6,30% | 10,10% | 5,10% | 100,00% |
| | | Ateizm | Say | 2 | 4 | 0 | 0 | 1 | 7 |
| | | | % | 28,60% | 57,10% | 0,00% | 0,00% | 14,30% | 100,00% |
| | | Deizm | Say | 1 | 3 | 0 | 0 | 0 | 4 |
| | | | % | 25,00% | 75,00% | 0,00% | 0,00% | 0,00% | 100,00% |
| | | Aqnostisizm | Say | 2 | 2 | 0 | 0 | 0 | 4 |
| | | | % | 50,00% | 50,00% | 0,00% | 0,00% | 0,00% | 100,00% |
| | | Digər | Say | 0 | 2 | 0 | 1 | 0 | 3 |
| | | | % | 0,00% | 66,70% | 0,00% | 33,30% | 0,00% | 100,00% |
| | Cəm | | Say | 24 | 54 | 5 | 9 | 5 | 97 |
| | | | % | 24,70% | 55,70% | 5,20% | 9,30% | 5,20% | 100,00% |
| Qadın | İnanc | İslam | Say | 4 | 29 | 5 | 2 | 2 | 42 |
| | | | % | 9,50% | 69,00% | 11,90% | 4,80% | 4,80% | 100,00% |
| | | Ateizm | Say | 2 | 2 | 0 | 0 | 1 | 5 |
| | | | % | 40,00% | 40,00% | 0,00% | 0,00% | 20,00% | 100,00% |
| | | Deizm | Say | 1 | 1 | 0 | 1 | 0 | 3 |
| | | | % | 33,30% | 33,30% | 0,00% | 33,30% | 0,00% | 100,00% |
| | | Aqnostisizm | Say | 1 | 0 | 0 | 0 | 0 | 1 |
| | | | % | 100,00% | 0,00% | 0,00% | 0,00% | 0,00% | 100,00% |
| | | Digər | Say | 1 | 0 | 1 | 0 | 0 | 2 |
| | | | % | 50,00% | 0,00% | 50,00% | 0,00% | 0,00% | 100,00% |
| | Cəm | | Say | 9 | 32 | 6 | 3 | 3 | 53 |
| | | | % | 17,00% | 60,40% | 11,30% | 5,70% | 5,70% | 100,00% |
| Cəm | İnanc | İslam | Say | 23 | 72 | 10 | 10 | 6 | 121 |
| | | | % | 19,00% | 59,50% | 8,30% | 8,30% | 5,00% | 100,00% |
| | | Ateizm | Say | 4 | 6 | 0 | 0 | 2 | 12 |
| | | | % | 33,30% | 50,00% | 0,00% | 0,00% | 16,70% | 100,00% |
| | | Deizm | Say | 2 | 4 | 0 | 1 | 0 | 7 |
| | | | % | 28,60% | 57,10% | 0,00% | 14,30% | 0,00% | 100,00% |
| | | Aqnostisizm | Say | 3 | 2 | 0 | 0 | 0 | 5 |
| | | | % | 60,00% | 40,00% | 0,00% | 0,00% | 0,00% | 100,00% |
| | | Digər | Say | 1 | 2 | 1 | 1 | 0 | 5 |
| | | | % | 20,00% | 40,00% | 20,00% | 20,00% | 0,00% | 100,00% |
| | Cəm | | Say | 33 | 86 | 11 | 12 | 8 | 150 |
| | | | % | 22,00% | 57,30% | 7,30% | 8,00% | 5,30% | 100,00% |

*"Türkiyə xalqı dinə və dindar həyat tərzinə hörmətlə yanaşır"* sorğusunda aqnostiklər (40%) *tamamilə razıyam* və ateistlər (16,7%) *qətiyyən razı deyiləm* cavabı ilə birincidir. Bu sorğuya ateistlərin 58,3, deistlərin 57,1, müsəlmanların 50,6, aqnostiklərin isə 20 faizi *razıyam* cavabını vermişdir.

Cinsiyyətə görə bölgüdə isə kişilərin 17,5 və qadınların 17 faizi *"Türkiyə xalqı dinə və dindar həyat tərzinə hörmətlə yanaşır"* fikri ilə tamamilə razıdır.

